31 may 2024 №40 (2105)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Xocalıda Müstəqillik Günü – Böyük Qayıdışın yeni səhifəsi

### Prezident İlham Əliyev: “Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi”

Bu gün burada – Xocalıda, cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda, görüşməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Məhz Müstəqillik Günündə mən sizinlə yenidən görüşmək istəmişəm. Üç ay bundan əvvəl – fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır.

Prezident İlham Əliyev bu sözləri mayın 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşdə deyib.

Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva Müstəqillik Gününü Xocalı sakinləri ilə birgə, onların doğma yurdunda qeyd ediblər.

**Böyük Qayıdışın Xocalı səhifəsi**

2023-cü ildə (19–20 sentyabr) lokal antiterror əməliyyatı nəticəsində işğaldan azad edildikdən sonra qısa müddət ərzində yenidən qurulan Xocalıya qayıdan ilk sakinləri təbrik edən Prezident İlham Əliyev bildirib ki, bu qayıdışın Müstəqillik Günündə gerçəkləşməsi təsadüfi deyil: “Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində – mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur. Əvvəlkindən də daha gözəl şəhərdir və daha da gözəl olacaq. Bu gün, sadəcə olaraq, birinci mərhələdir. Bu gün, əslində, Böyük Qayıdış proqramının Xocalı səhifəsi yazılır”.

Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin ən qanlı səhifəsini Xocalı sakinləri yaşayıblar. Prezident bu barədə deyib: “Müstəqilliyin bərpası elan olunandan dörd ay sonra Ermənistan Xocalı soyqırımını törətdi, günahsız insanları qətlə yetirdi, insanlığa qarşı cinayət törətdi. Xocalılılar faktiki olaraq müstəqilliyin bütün illərini başqa-başqa yerlərdə keçirməli oldular, o cümlədən Ağcakənd (Goranboy rayonu – red.) kəndində. Bildiyiniz kimi, birinci köçkün qəsəbəsi məhz Ağcakənd qəsəbəsində xocalılılar üçün Ulu Öndərin iştirakı ilə salınmışdır”.

**“Hər şeyin vaxtı var və biz qayıtmışıq...”**

Prezident qeyd edib ki, Xocalının, Xankəndinin, 2020-ci ilin 44 günlük müharibəsindən sonra nəzarətimizdən kənarda qalan, separatçıların hələ də oynatdıqları digər şəhər və kəndlərimizin azad edilməsi Azərbaycanın gücünü, iradəsini dünyaya nümayiş etdirdi: “Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdır. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!



Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq. Onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. Halbuki Ermənistanda revanşistlər də kifayət qədər çoxdur. Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik”.

davamı səh. 2-də

## “Rəqəmsal yaradıcı həftəsonu” – Bakıda və Şuşada

31 may – 3 iyun tarixlərində Bakıda və Şuşada “Rəqəmsal yaradıcı həftəsonu” (Digital Creative Weekend) layihəsi həyata keçirilir.

Layihə çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə genişmiqyaslı oyun festivalı – “Gamesummit 2024” təşkil ediləcək. Mayın 31-də “Baku Cristal Hall”da məşhur pop musiqiçisi Con Nyumanın açılış konserti ilə başlayacaq oyun sammiti 3500-dən çox kompüter oyunu həvəskarını, oyun tərtibatçısını və şirkətləri, icmaları, İT startapları, eləcə də müxtəlif dövlət qurumlarının nümayəndələrini bir araya gətirəcək.

Tədbir çərçivəsində aparıcı xarici və yerli ekspertlərin iştirakı ilə beynəlxalq biznes konfrans, yerli şirkətlər arasında ən yaxşı kompüter oyunu üzrə müsabiqə, həmçinin “Yaradıcı” brendi, rəqəmsal incəsənət, animasiya və digər sərgi pavilyonlarının yaradılması nəzərdə tutulub. Müxtəlif interaktiv əyləncələr – arkad maşınları, VR zonası və müstəqil yerli tərtibatçıların oyunlarının nümayişi də olacaq.

Oyun sammitində “e-Sports” kateqoriyası üzrə müxtəlif yarışmalar, “Cosplay” (xüsusi personajların həvəskarlar tərəfindən nümayiş etdirilməsi), “K-pop” (Koreya pop musiqisi) rəqsləri və musiqili çıxışlar, həmçinin “AzDimension” studiyası tərəfindən həmin gündək elan olunmamış oyunlar təqdim ediləcək.

“Gamesummit” oyun texnologiyası sahəsində ən son nailiyyətlərini nümayiş etdirmək, müstəqil oyun tərtibatçılarına istedadlarını üzə çıxartmaq və peşəkar oyunçularla əlaqə qurmaq üçün platforma rolunu oynayacaq.

İyunun 2-də “Baku Cristal Hall”da ICESCO-nun “A-Hub Akselerasiya Proqramı”nın 2023-cü il üzrə dünya finalı, iyunun 3-də isə “İslam dünyasının mədəniyyət paytaxtı” Şuşada mükafatlandırma mərasimi təşkil olunacaq.

Şuşada Beynəlxalq Sahibkarlar Forumu da keçiriləcək.




“Startapların və gələcək inklüziv texnologiyaların önəmi”, “Sahibkarlıq vasitəsilə qadınların gücləndirilməsi: trendlər və çağırışlar” mövzularında müzakirələr aparılacaq.

## Elxan Qasımovun xatirəsi anılıb

Mayın 29-da Əməkdar artist, tanınmış kinoaktyor və rejissor Elxan Qasımovun (1945–2023) vəfatının ildönümü tamam oldu. Bu münasibətlə Azərbaycan Dövlət Film Fondunda Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə xatirə gecəsi keçirilib.



Tədbir çərçivəsində sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi açılıb.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev sənətkarın həyat və sənət yolundan bəhs edib. Bildirib ki, Elxan Qasımov fondda təşkil olunan yubiley və anım günlərində hər zaman fəal iştirak edər, öz fikirlərini bölüşərdi. O, sənətə və dostlarına sadiq insan idi. “Azərbaycanfilm” kinostudiyasının ən ağır günlərində oranı tərk etmədi, həmkarlarına dayaq oldu.

Xalq artistləri Əbdül Mahmudov, Xamis Muradov, Oqtay Mirqasımov, Xalidə Quliyeva, Xalq yazıçısı Natiq Rəsulzadə, Əməkdar artist Suğra Bağırzadə, Əməkdar incəsənət xadimi Müşfiq Hətəmov və digər çıxış edənlər E.Qasımov haqqında xatirələrini bölüşüblər.

Sənətkarın qızı Kəmalə Qasımova çıxış edərək tədbirin təşkilinə görə təşəkkürünü bildirib.

Tədbirin sonunda kinorejissor Oqtay Mirqasımovun “Azərbaycan haqqında etüd” (1969) və Elxan Qasımovun “Nizami Gəncəvi” (1976) sənədli filmləri nümayiş olunub. “Azərbaycan haqqında etüd” filmində çəkilmiş E.Qasımov eyni zamanda filmin rejissor assistentidir. Hər iki ekran əsəri “Azərbaycanfilm”də istehsal olunub və Dövlət Film Fondu tərəfindən elektron bərpa edilib.

## Venesiya Biennalesində Azərbaycan pavilyonu maraqla ziyarət olunur

“La Biennale di Venezia” – Venesiya Biennalesi müasir incəsənət sahəsində dünyanın ən nüfuzlu beynəlxalq sərgilərindəndir. 1895-ci ildə əsası qoyulan sərgi İtaliyanın Venesiya şəhərində hər iki ildən bir keçirilir.

Biennale dünyanın hər yerindən müasir incəsənəti təbliğ etmək və nümayiş etdirmək üçün yaradılıb. Beynəlxalq sərgi vizual incəsənət, memarlıq, kino, rəqs, musiqi və teatr da daxil olmaqla, geniş bədii sahələri əhatə edir.

davamı səh. 8-də

## Bakıda Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı

AMEA-nın əsas binasının önündəki parkda bir həftə davam edən III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı artıq sona yaxınlaşıb.



Beynəlxalq Türk Müəllifləri Birliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi, Milli Məclisin Mədəniyyət komitəsi, TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, AMEA, Bakı Şəhər İcra Hakimiyyəti, Beynəlxalq Türk Akademiyası, TİKA və digər qurumların dəstəyi ilə gerçəkləşən festivalın hər günü Türk dünyasından bir ölkənin adı ilə adlandırılıb.

Mayın 24-də festivalın açılış mərasimində çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar Türk dünyasının sarsılmaz birliyinə, türk dövlətləri arasındakı əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcək III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının əhəmiyyətindən danışıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Beynəlxalq Türk Akademiyasının təmsilçisi Əbülfəz Süleymanlı, Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı, TİKA Bakı proqram koordinatoru Hayrettin Özçelik, Türkiyənin Azərbaycandakı Səfirliyinin əməkdaşı Muhittin Macit, Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı çıxış edərək festivalın türk dövlətlərinin dostluğunun, birliyinin daha bir parlaq nümunəsi olduğunu vurğulayıblar.

Onu da qeyd edək ki, festivalın ilk günü Qırğızıstan günü idi. Çıxışlardan sonra ədəbi-bədii kompozisiyalar təqdim olunub.

davamı səh. 2-də

## “Böyük Qayıdışın istedadları”



Mayın 30-da Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində “Böyük Qayıdışın istedadları” layihəsi çərçivəsində Füzuli və Ağdam rayonlarının uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin iştirakı ilə konsert, sərgi və bədii qiraət müsabiqəsi keçirilib.

Qeyd edək ki, Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən gerçəkləşdirilən layihə işğaldan azad olunmuş ərazilərə qayıtmış sakinlərin övladlarının mədəni həyata daha sıx inteqrasiya olunması, istedadlı gənclərin aşkar edilərək gələcəkdə respublika və beynəlxalq səviyyəli müsabiqələrdə iştirakına dəstək göstərilməsi məqsədi daşıyır.

Tədbirdə iştirakçılar tərəfindən çəkilmiş Qarabağ təbiət gözəlliklərini vəsf edən peyzaj nümunələrinin sərgisi təşkil edilib, şagirdlərin ifasında vətənpərvərlik ruhlu bəstəkar əsərləri və xalq mahnıları ifa olunub.

Layihə çərçivəsində həmçinin bədii qiraət müsabiqəsi keçirilib. Səsləndirilən şeirlər münsiflər tərəfindən qiymətləndirilib.

Tədbir zamanı peşəkar fotoqraf tərəfindən uşaqlar üçün ustad dərsi də təşkil olunub.

## Kuklaçılar və “Oyuq”çular Füzuli məktəbinin səhnəsində

Azərbaycan Dövlət Kukla Teatrı və “Oyuq” müstəqil teatrının kollektivləri mayın 27-də Füzuli şəhər Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbinin qonağı olublar.



28 May – Müstəqillik Günü münasibətilə məktəbin səhnəsində təqdim olunan tamaşa və konsert proqramı əsl bayram ovqatı yarada bilib.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi və Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin dəstəyi ilə baş tutan səfər balacalara unudulmaz anlar bəxş edib.

Kuklaçılar Füzuli sakinləri qarşısında “Məlikməmməd” tamaşasını göstəriblər. Tamaşanın quruluş müəllifi teatrın baş rejissoru Anar Məmmədov, səhnə tərtibatçısı teatrın baş rəssamı İqbal Əliyevdir. Rejissor xalq nağılını İkinci Qarabağ müharibəsi, tarixi Zəfərimizlə əlaqələndirib və mövzuya fərqli prizmadan baxmağa çalışıb.

Sonra “Oyuq” teatrının yetirmələri “Can Qarabağ” adlı rəngarəng konsert proqramı ilə çıxış ediblər.



### “Arzulara toxunaq!” – ustad dərsləri

səh. 2



### Müstəqillik – xalqın milli sərvəti

səh. 4

№40 (2105)
31 may 2024
www.medeniyyet.az

# Mədəniyyət və texnika sahələrində Dövlət Mükafatları verilib

Prezident İlham Əliyev mayın 27-də 2024-cü il üçün Azərbaycan Respublikasının texnika və mədəniyyət sahələrində Dövlət Mükafatlarının verilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, 2024-cü il üçün texnika sahəsi üzrə mükafat "Xüsusi təyinatlı sürtgü yağlarının yaradılması və istehsalının təşkili" kompleks elmi-texniki işinə görə Vaqif Məcid oğlu Fərzəliyevə, Həqiqət Əliəşrəf qızı Cavadovaya və Əfsun Rəzzaq oğlu Sucayevə verilib.

Mədəniyyət sahəsi üzrə mükafat isə teatr rejissorluğu sahəsində fəaliyyətinə görə Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Zaur qızı Ələkbərzadəyə verilib.

Qeyd edək ki, Dövlət Mükafatları Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli sərəncamı ilə təsis edilib. Hər biri 30 000 manat məbləğində olan Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə 5 Dövlət Mükafatı iki ildən bir (hər cüt ildə) 28 May — Müstəqillik Günü ərəfəsində Dövlət Mükafatları Komissiyasının qərarı ilə verilir.

# Müstəqillik Gününə həsr olunmuş sənət hesabatı



Mayın 29-da Milli Konservatoriyanın konsert salonunda Fikrət Əmirov adına 6 nömrəli Uşaq incəsənət məktəbinin 28 May – Müstəqillik Gününə həsr olunmuş hesabat konserti keçirildi.

Konsertdən əvvəl məktəbin fəaliyyəti və son illərdə qazanılan uğurlardan söz açıldı. Diqqətə çatdırıldı ki, hesabat tədbirində ilk dəfə məktəbin rəssamlıq şöbəsi şagirdlərinin heykəltaraşlıq işləri də təqdim olunur.

Daha sonra səhnə şagirdlərin ixtiyarına verildi. Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndi. Məktəbin "Odlar yurdu" rəqs ansamblının ifası ilə başlanan konsertin davamını şagirdlərin fortepiano, kamança, tar, fleyta, qarmon, violin alətlərində ifaları bəzədi. Xoreoqrafik nömrələr, bir-birindən fərqli ifalar tamaşaçıların alqışları ilə qarşılandı. Konsert məktəbin xor qrupunun ifasında Azər Dadaşovun "And yerimiz" və Qara Qarayevin "Sülh haqqında mahnı"sı ilə yekunlaşdı.

Sonda Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, Milli Konservatoriyanın prorektoru Lalə Hüseynova və məktəbin direktoru Adilə Yusifova səhnəyə çıxaraq uşaqları uğurlu çıxışları münasibətilə təbrik etdilər, yeni uğurlar arzuladılar.

**Lalə**

# Muzeydə nağıllar aləminə səyahət



Dünyaşöhrətli violonçelçi, dirijor Mstislav Rostropoviç (1927–2007) uşaqlara daim diqqət və qayğı ilə yanaşırdı. Onun adı tarixə məşhur xeyriyyəçi kimi də düşüb. 1997-ci ildə Ulu öndər Heydər Əliyevin dəvəti ilə M.Rostropoviç doğma Bakıya gəlir. Həmin ildən sonra M.Rostropoviçin hər il 10 günlüyə Azərbaycana gələrək buradakı tələbələrə ustad dərsləri verməsi onun uşaq və gənclərə sevgisinin təzahürü idi.

Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyində maestronun ənənələri davam etdirilir. İstedadlı uşaqlar üçün maraqlı, maarifləndirici tədbirlər keçirilir.

1 iyun – Beynəlxalq Uşaqları Müdafiə Günü münasibətilə muzeydə "Uşaq dünyası – nağıl aləmidir!" şüarı ilə "Nağıllar aləminə səyahət" adlı tədbir təşkil olunub. Tədbirdə 189-190 saylı orta məktəbin müəllim və şagird kollektivi iştirak edib.

Uşaqların sevimlisi, "Mərcangildə" verilişinin aparıcısı Aysel Qəhrəmanlı qonaqlara italyan yazıçı Karlo Kollodinin "Pinokkio" nağılını oxuyub.

Sonra A.Qəhrəmanlı uşaqlarla interaktiv oyunlar təşkil edib. Uşaqların ifasında şeirlər, mahnılar səsləndirilib, rəqslər nümayiş etdirilib. Uşaqlara muzey tərəfindən boyama kitabları hədiyyə edilib.

# Xocalıda Müstəqillik Günü – Böyük Qayıdışın yeni səhifəsi

*əvvəli səh. 1-də*

Xocalıda hərbçilər üçün inşa edilmiş evlərlə də tanış olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan suverenliyini tam bərqərar etdiyi əraziləri dirçəltməklə bərabər, bu yerlərdə hərbi qüdrətini də möhkəmlədəcək: "Bütün Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və burada artıq bu istiqamətdə işlər görülür ki, Azərbaycan xalqı əbədi əmin olsun, bir daha bu faciələr bizim xalqımızın başına gəlməyəcək".

İşğaldan azad edilən ərazilər, o cümlədən Xocalı bundan sonra düşmənə gözdağı olan quruculuq və abadlıq məkanlarına çevriləcək: "O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz. Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız – kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm, – Bakıda və digər yerlərdə qəsəbə salınmışdır, – deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi. Sizi təbrik edirəm. Sizə cansağlığı arzulayıram".



Dövlətimizin başçısı və birinci xanım evlərin açarlarını sakinlərə təqdim ediblər. Xatirə şəkilləri çəkdirilib.

***



Qeyd edək ki, mayın 28-də 20 ailə yenidən qurulan Xocalıya qayıdıb. Mayın 30-da isə daha 24 ailə Xocalı şəhərinə köçüb. Onlara yeni evlərinin açarları təqdim olunub. Bununla Xocalıda 44 ailənin, 169 nəfərin daimi məskunlaşması təmin edilib.

Baş plana əsasən, növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 1290 hektara, əhali sayının isə 12 minə çatacağı proqnozlaşdırılır. Coğrafi mövqe və təbii zənginlik burada aktiv sosial həyat, təbiətlə təmasda keyfiyyətli yaşayış imkanlarını təmin edəcək.

Ağdam-Xankəndi-Şuşa marşrutu üzərində yerləşən Xocalı şəhəri regional mərkəz, strateji yaşayış məntəqəsi rolunu oynayacaq. Beynəlxalq hava limanının mövcudluğu, şəhər ətrafından keçəcək respublika əhəmiyyətli avtomobil və dəmir yolları Xocalını həm işgüzar, həm də turizm məqsədləri üçün rahat təyinat nöqtəsinə çevirəcək. Sənaye, təhsil və mədəniyyət mərkəzlərinə yaxınlığı, zəngin tarixi irsə malik olması isə şəhərin müxtəlif istiqamətlərdə inkişafına töhfə verəcək.

Qədim yaşayış məskəni olan Xocalı həm də zəngin tarixi irsi, dünya əhəmiyyətli arxeoloji abidələri ilə fərqlənir. İşğal dövründə ciddi zərər görmüş bu abidələrin qorunması məqsədilə Baş planla 50 hektardan çox ərazidə arxeoloji parkın yaradılması nəzərdə tutulur.

Bütün bununla bərabər qan yaddaşımızın Xocalı səhifəsi ədəbi olaraq tarixdə qalacaq. Xocalıda yaradılacaq memorial kompleks də bu tarixi yaşadacaq.

Xocalı sakinləri ilə görüşdə bu barədə danışan Prezident İlham Əliyev diqqətə çatdırıb ki, memorial kompleksin yaradılması ilə bağlı məsələlər uzun illər müzakirə edilib, hətta Bakıda "Ana fəryadı" abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı: "Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu memorial kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir".

# Tələbələrin Musiqi Mədəniyyəti Dövlət Muzeyində konserti

Mayın 29-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı ilə Müstəqillik Günü münasibətilə konsert keçirilib.



Konsertdən öncə Musiqi Mədəniyyəti Dövlət Muzeyinin şöbə müdiri Xanım Abdinova giriş sözü söyləyib. Sonra Dövlət Himni səsləndirilib. "28 May Müstəqillik Günüdür" adlı videoçarx nümayiş olunub.

Daha sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası Metodika və xüsusi pedaqoji hazırlıq kafedrasının musiqi müəllimliyi şöbəsi tələbələrinin ifalarında Azərbaycan və dünya klassiklərinin əsərlərindən ibarət rəngarəng musiqi proqramı təqdim edilib.

# Uşaq Kitabxanasında bayram tədbiri

Mayın 27-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Hüseynqulu Sarabski adına 7 saylı Musiqi məktəbinin birinci sinif şagirdlərinin iştirakı ilə bayram tədbiri keçirilib.




28 May – Müstəqillik Günü münasibətilə təşkil olunmuş tədbirdə 8 nömrəli tam orta məktəbin şagirdləri də qonaq qismində iştirak ediblər.

Kitabxananın elmi işlər üzrə direktor müavini Zahirə Dadaşova açılış nitqi söyləyib. Bildirib ki, müstəqilliyimiz bərpa edildikdən sonra hər il bu bayram ölkəmizdə böyük təntənə ilə qeyd olunur.

Məktəbin müəllimlərinin müşayiəti ilə şagirdlər müxtəlif musiqi alətlərində Ü.Hacıbəylinin "Çırpınırdın, Qara dəniz", F.Əmirovun "Çeşmə başında", Motsartın "Rondo", M.Nəsirbəyovun "Mahnı", A.Rzayevanın "Dəcəl buzovum", R.Hacıyevin "Azərbaycanım" və s. əsərləri ifa ediblər.

# İstiqlalımızın iki mübarizi

Bu il istiqlalımızın, varisi olduğumuz Xalq Cümhuriyyətinin yaradıcılarından və ideya müəlliflərindən olan Məhəmməd Əmin Rəsulzadənin 140, Əli bəy Hüseynzadənin isə 160 illik yubileyləri ilə də əlamətdardır.

Bu münasibətlə Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində "Azərbaycan istiqlalının iki mübarizi: Məhəmməd Əmin Rəsulzadə və Əli bəy Hüseynzadə" adlı tədbir keçirilib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Sənətşünaslıq fakültəsinin II kurs tələbələri Məhəmməd Hacıyev və Şahbikə Şahbazova mövzu üzrə məruzə ilə çıxış ediblər.

Sonda Dövlət Arxivində qorunan Cümhuriyyət Parlamenti iclaslarına aid protokolların surəti mərkəzin elmi arxivinə təqdim edilib.

# "Arzulara toxunaq!"

Mayın 30-da Azərbaycan Dövlət Rəsm Qalereyası və "ArtCardio"nun birgə təşkilatçılığı ilə "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi nəzdində fəaliyyət göstərən Gender əsaslı zorakılıq qurbanları üçün reabilitasiya və reinteqrasiya mərkəzində ustad dərsləri keçirilib.

"Arzulara toxunaq!" adlı tədbir 1 iyun – Beynəlxalq Uşaqları Müdafiə Günü münasibətilə gerçəkləşib. Aksiyanın məqsədi valideyn himayəsindən və qayğısından məhrum uşaqlar arasında incəsənətə maraq yaratmaqdır.

Qalereyanın direktoru Gülşən Qəribli və "Təmiz Dünya" İB nəzdindəki adıçəkilən mərkəzin rəhbəri Mehriban Zeynalova çıxış ediblər.

Sonra peşəkar rəssam və dekorativ-tətbiqi sənət ustalarının iştirakı ilə ustad dərsləri aparılıb. Uşaqlara rəngkarlıq və dekorativ-tətbiqi sənət nümunələrinin yaradılmasının üsul və texnikaları haqqında məlumat verilib, yaradıcılıq prosesi əyani nümayiş etdirilib.

Dərslərdən sonra musiqili proqram, müxtəlif oyun və şoular təqdim olunub. Dərslərdə fəal iştirak edən uşaqlara hədiyyələr və sertifikatlar verilib.

# Bakıda Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı

*əvvəli səh. 1-də*

Mayın 24-də AYB-nin 90 illiyinə həsr edilmiş panel də keçirilib. Xalq yazıçısı Anar qurumun ötən 90 ildə keçdiyi yola nəzər salıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, sovet hakimiyyətinin ən sərt illərində belə AYB ədəbiyyatımızı, milli kimliyimizi, ana dilimizi qorumaq üçün əsl qəhrəmanlıq nümayiş etdirib.

AYB sədrinin müavini Elçin Hüseynbəyli, qurumun Türkiyə təmsilçisi İmdat Avşar və başqaları çıxış ediblər.

***

Mayın 25-də (Özbəkistan günü) Özbəkistan ədəbiyyatı, "Sazlı-sözlü kəlağayı günləri", Xalq şairi Vaqif Səmədoğlunun (1939–2015) 85, özbək şairi Məhəmməd Yusufun (1954–2001) 70 illik yubileylərinə həsr olunmuş panel müzakirələr, tədbirlər, konsert və şeir saatları gerçəkləşib. Günün sonunda isə "Özbəkistanı tanıdırıq" adlı film nümayiş etdirilib.

***

Mayın 26-da (Macarıstan günü) rəngarəng tədbirlər təşkil edilib. Gün ərzində Macarıstan ədəbiyyatı, "Natiqlik mədəniyyəti – özünü ifadəetmə bacarığı", "Ədalətəm, xoşbəxtəm mən, Türk dünyamdı bizə vətən", macar şairi, yazıçısı, pedaqoqu və tərcüməçisi Agnes Nemes Nagynin xatirəsinə həsr olunmuş "Gül dəftəri" adlı tədbirlər keçirilib. Günün sonunda "Budapeştə" filmi izlənilib.

***

Mayın 27-də (Qazaxıstan günü) günün birinci yarısında "Türk xalqları", "Divanü-lüğat-it-türk" – 950", "Vurğun keçdi bu yerlərdən" adlı tədbirlər keçirilib, "Türk dünyasında qəhrəmanlıq əsərlərinin tədqiqi və təşviqi", "Cəfər Cabbarlı – 125" və "Alim şairlər" mövzularında panel müzakirələr aparılıb.

Günün ikinci yarısında görkəmli ədəbiyyatşünas alim, mətnşünas, şair Salman Mümtazın (1884–1941) 140 illiyi ilə bağlı panel müzakirəsi təşkil olunub.

AMEA-nın Ədəbiyyat İnstitutunun baş elmi işçisi professor Asif Rüstəmli Salman Mümtazın tərcümeyi-halı barədə maraqlı məlumatları diqqətə çatdırıb, alimin Cümhuriyyət dövrü fəaliyyəti haqqında söz açıb.

Günün sonunda Qazaxıstanın Xalq yazıçısı Fariza Ongarsynovanın (1939–2014) xatirəsinə həsr olunmuş "Gül dəftəri" adlı panel müzakirəsi keçirilib, "Aykuo" filmi nümayiş etdirilib.

***

28 May – Müstəqillik Günündə festival Azərbaycana həsr olunub. Həmin gün Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi münasibətilə panel təşkil edilib.

Panelin moderatoru Ədəbiyyat İnstitutunun baş elmi işçisi filologiya elmləri doktoru Lütfiyyə Əsgərzadə dahi şair-dramaturq Hüseyn Cavidin böyük qardaşı, maarif xadimi, şair Şeyx Məhəmməd Rasizadənin (1878–1939) ömür yolundan, pedaqoji fəaliyyətindən, yaradıcılığından söz açıb.

Yazıçı-dramaturq, jurnalist Bayram İsgəndərli Naxçıvan bölgəsinin təbiət gözəlliklərindən, tarixi-mədəni zənginliklərindən və yetirdiyi şəxsiyyətlərdən danışıb. Ədəbiyyat İnstitutunun şöbə müdiri professor Tahirə Məmməd naxçıvanlı alimlərin Azərbaycan ədəbiyyatşünaslığına töhfələrindən bəhs edib.

"Mədəniyyət" qəzeti baş redaktorunun müavini Fariz Yunisli "Naxçıvanın müasir mədəni həyatı və media" mövzusunda fikirlərini bölüşüb.

Şair, publisistlər İbrahim Yusifoğlu, Məmməd Tahir, Xalidə Nuray Naxçıvana həsr olunan şeirlərini səsləndiriblər.

Günün ikinci yarısında ilk Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunan panel müzakirəsi keçirilib.



Eyni zamanda Azərbaycan ədəbiyyatı, Nizami adına Ədəbiyyat İnstitutunun 90 illiyi və mərhum millət vəkili Qənirə Paşayevanın xatirəsinə həsr olunan tədbirlər, görüş, film nümayişi və konsert reallaşıb.

***

Mayın 29-da (Türkiyə günü) Türkiyə ədəbiyyatı, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530, Xalq şairi Hüseyn Arifin 100, türk şairi Nigar Binti Osmanın xatirəsinə həsr olunmuş panellər, görüş, şeir saatları, film nümayişi keçirilib.

***

Mayın 30-da (Türkmənistan günü) "Türkmənistan ədəbiyyatı. Dünən, bu gün, sabah" kitabının təqdimatı olub. "Bəkir Çobanzadə izlərində", türkmən şairi Məhdimqulu Fəraqinin 300, 20 Yanvar şəhidi, şair Ülvi Bünyadzadənin 55 illik yubileylərinə həsr olunmuş panel və s. tədbirlər təşkil edilib.

III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı mayın 31-də (Şimali Kipr günü) başa çatacaq.

**Nurəddin**

# Qazaxıstanın "Turan" ansamblından istiqlal bayramımıza töhfə

Mayın 28-də Beynəlxalq Muğam Mərkəzində Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) tərəfindən Azərbaycan Respublikasının Müstəqillik Gününə həsr olunan konsert proqramı təqdim olundu.





Konserti izləyənlər sırasında mədəniyyət nazirinin müavini Səadət Yusifova, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri və tanınmış incəsənət xadimləri var idi.

Əvvəlcə TMİF-in prezidenti Aktotı Raimkulova çıxış edərək Müstəqillik Günü münasibətilə təbriklərini çatdırdı, ölkəmizə sülh və əmin-amanlıq arzuladı. Bildirdi ki, bir gün əvvəl (27 may) Nizami Kino Mərkəzində fond tərəfindən Azərbaycanın Müstəqillik Günü münasibətilə daha bir tədbir – Qarabağın görkəmli şəxsiyyətlərinin təsvirlərinin ipək yaylıqların üzərində əks olunduğu "Qarabağın cizgiləri" adlı sərgi və TMİF-in layihəsi üzrə 2022-ci ildə çəkilən, Qarabağ xanının son varisi Xurşidbanu Natəvana həsr olunan "Şuşanın tək incisi" filminin təqdimatı keçirilib.

Sonra Qazaxıstanın "Turan" folklor-etnoqrafik ansamblının iştirakı ilə konsert təqdim olundu. Konsert TMİF və Roza Baqlanova adına "Qazaxkonsert" Dövlət Akademik Konsert Təşkilatının birgə təşkilatçılığı ilə keçirilirdi.

Proqramda həm qrupun repertuarından tanış kompozisiyalar, həm də yeni əsərlər təqdim olundu.

Ansambl ilk olaraq Dədə Qorquda həsr olunan əsəri səsləndirdi. Türk xalqlarının qəhrəmanlıq dastanlarından nümunələr, eləcə də Azərbaycan xalq mahnılarının yer aldığı proqram tamaşaçıların böyük alqışları ilə qarşılandı. Konsertin finalında "Ər Turan" ("Türk Kanı") əsəri ifa olundu.

Qeyd edək ki, 2008-ci ildə Almatı şəhərindəki Kurmanqazı adına Qazax Milli Konservatoriyasında yaradılan "Turan" qrupu qısa müddətdə Qazaxıstanla yanaşı, geniş Türk dünyası coğrafiyasında populyarlıq qazanıb.

"Turan" ansamblı fəaliyyəti dövründə dünyanın yüzdən çox şəhərində konsertlər verib. Kollektiv ötən ilin dekabrında da Bakıda çıxış etmişdi.

**L.Azəri**

# "Aşıq dastanları"nın ilk cildi işıq üzü görüb

Azərbaycan Aşıqlar Birliyində (AAB) nəşrə hazırlanan "Aşıq dastanları" kitabının ilk cildi çapdan çıxıb.

AAB-nin katibi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, təqdim olunan dastanlar son illərdə ustad aşıqların repertuarından yazıya alınıb. Bu nəşrin əvvəlkilərdən fərqi ondadır ki, təqribən otuza yaxın dastanı əhatə edəcək antologiyada XXI əsrin ilk rübündə saz-söz aləmində xidmətləri olan Arif (Əlövsət) Əsgərov, Hüseyn Qoşqarlı, Məmməd Bozalqanlı, Ürfan Əli, Nəbi Nağıyev, Altay Məmmədli, Nazim Bahadıroğlu, Elbrus Hüseynov, Şöhrət Kərimov, Elməddin Məmmədli, Ağamurad Şirvanlı, Elman Talıstanlı, Babək Şakirli, Nizami Şirinov, Gəncəli Babayev, Vüqar Qurbanov, Şəhriyar Kərimov və başqa sənətkarların canlı ifasından yazıya alınaraq lüğət və şərhlərlə birlikdə oxuculara təqdim olunur.

Antologiyanın birinci cildində "Abbas və Gülgəz", "Qurbani", "Xəstə Qasım", "Şahismayıl və Gülzar", "Leyli və Məcnun", "Vaqif", "Aşıq Qərib", "Tahir və Zöhrə" və "Yəhya bəy Dilqəm və Telli xanım" dastanları yer alıb.

Kitabın elmi redaktoru AAB-nin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, nəşrə hazırlayanlar filologiya elmləri doktoru Mahmud Allahmanlı, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu və filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli, redaktoru filologiya üzrə fəlsəfə doktoru Aynur Xəlilovadır.

# Göyçə aşıq məktəbinin dünəni və bu günü səhnədə

Mayın 29-da Heydər Əliyev Sarayında "Göyçə aşıq məktəbi – dünən və bu gün" adlı konsert keçirilib. Konsert Qərbi Azərbaycan İcması və "Ulu Göyçə" şirkətinin təşkilatçılığı, "Dalğa" qrupunun rəhbəri, Göyçə aşıq məktəbinin davamçılarından olan Çingiz Mehdipurun bədii rəhbərliyi ilə gerçəkləşib.



Konsertdən əvvəl qonaqlar foyedə Qərbi Azərbaycanın tarixi və mədəni irsini, 1987–91-ci illərdə Ermənistan SSR-dən deportasiya edilmiş soydaşlarımızın qaçqınlıq həyatını əks etdirən fotosərgi ilə tanış olublar. Sərgidə Göyçə mahalının Qaraqoyunlu kəndinin 3D formatında yığılmış maketi (müəllif Bəxtiyar Qəhrəmanov) də nümayiş olunub.

Tədbirdə Göyçə aşıq məktəbi, onun yetişdirdiyi görkəmli simalar, ustadlar barədə məlumat verilib. Ermənistanın uzun illər azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasətinin UNESCO-da Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan aşıq sənətinin mühüm bir qolu olan Göyçə aşıq məktəbinə necə böyük zərbə vurduğu diqqətə çatdırılıb. Bildirilib ki, bununla belə, Göyçə aşıq məktəbinin davamçıları və təəssübkeşləri ozan-aşıq sənətinin minillik ənənələrini yaşadırlar.

Konsertdə aşıqlar Ramin Qarayev, Nazim Quliyev, Əli Zeynalabdinov, Xatirə Məmmədxanlı, Əfsanə Kərimova, Ayşən Mehdiyeva, Salar Mehdipur, Əli Novruzi, Çingiz Mehdipur, Nəbi Nağıyev, eləcə də Xalq artistləri – xanəndə Alim Qasımov, vokalçı Samir Cəfərov, Əməkdar artist Fərqanə Qasımova, xanəndə Mirələm Mirələmov və başqaları çıxış ediblər. Göyçə aşıq sənəti, Qərbi Azərbaycan saz havaları tamaşaçılara xoş təəssürat bəxş edib.

# Musiqili Teatrda "Adamın adamı"

İyunun 6-da Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Xalq yazıçısı Anarın "Adamın adamı" pyesi və görkəmli bəstəkar, Xalq artisti Vasif Adıgözəlovun musiqisi əsasında hazırlanan eyniadlı tamaşanın premyerası olacaq.




Qeyd edək ki, pyes Musiqili Teatrda 2005–2010-cu illərdə mərhum rejissor Faiq Zöhrabovun quruluşunda "Aldın payını, çağır dayını" adı ilə oynanılıb. Əsər bu dəfə Əməkdar incəsənət xadimi Əsgər Əsgərovun quruluşunda təqdim olunacaq.

Səhnə əsərində cərəyan edən hadisələrdə cəmiyyətin bir sıra problemləri satirik-yumoristik vəziyyətlərlə ön plana çəkilir. Dəbdəbəli həyat tərzi ilə seçilən vəzifə və pul düşkünlərinin, əslində, sosial-psixoloji durumlarındakı natamamlıqlar obrazların dili ilə tamaşaçılara çatdırılır.

Quruluşçu dirijor Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, səhnə tərtibatçısı Əməkdar rəssam Nabat Səmədova, quruluşçu baletmeyster Əməkdar artist Nigar Şahmuradova, xormeyster Əməkdar artist Vaqif Məstanov, dirijor Səməd Süleymanlı, rejissor Elməddin Dadaşov, konsertmeysterlər Kamil Həsənov və Fidan Məmmədova, rejissor assistenti Tamilla Aslanovadır.

Tamaşada Xalq artisti Fatma Mahmudova, Əməkdar artistlər Ələkbər Əliyev, Əkbər Əlizadə, Çingiz Əhmədov, Şövqi Hüseynov, Almaz Ələsgərova, İqrar Salamov, aktyorlar Gülcahan Salamova, Ülviyyə Əliyeva, Gültac Əlili, Türkel Tariqpeyma, Şaban Cəfərov, Elxan İsmayılov, Hüseyn Əlili, Nicat Əli, Ruslan Mürsəlov, Cəbrayıl Cəbrayılov, Günay Qasımova, Nigar Qarayeva, həmçinin teatrın xor və balet artistləri iştirak edirlər.

# Sevgi qınağı eşitməyə hazırsınız?

İyunun 2-də Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı mövsümün növbəti premyerasını təqdim edəcək.




Kolumbiya yazıçısı Qabriel Qarsia Markesin (1927–2014) "Kürsüdə əyləşmiş kişiyə sevgi qınağı" pyesi əsasında hazırlanan monotamaşa Azərbaycanın Xalq artisti Natalya Şarovskayanın 70 illik yubileyinə həsr edilib.

Tədqiqatçılar Markesin bu birpərdəli pyesini qadınlar üçün yazılmış əsər kimi dəyərləndirirlər.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Aleksandr Şarovskidir. "Kürsüdə əyləşmiş kişiyə sevgi ittihamı"nın səhnə həllində Azərbaycanın Əməkdar mədəniyyət işçiləri Aleksandr Fyodorov dekorasiya üzrə, Olqa Abbasova geyim üzrə rəssam olaraq çalışıblar.

Səhnə əsərinin musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Vladimir Neverov, xoreoqrafı Olqa Arsentyeva, işıq rəssamı Nikolay Rudıçevdir.

# Musiqi məktəbinin 45 illiyi qeyd olunub

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən M.Maqomayev adına 26 nömrəli onbirillik Musiqi məktəbinin yaradılmasının 45 illiyinə həsr olunmuş konsert keçirilib.



Azərbaycan Dövlət Akademik Filarmoniyasında təşkil olunan konsertdə mədəniyyət işçiləri, musiqi və incəsənət məktəblərinin direktorları və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə təhsil ocağının yaranma tarixi, fəaliyyəti və uğurları haqqında məlumat verilib.

Sonra konsert proqramı təqdim olunub. Məktəbin respublika və beynəlxalq müsabiqələr laureatları olmuş şagirdləri Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini, həmçinin xalq mahnılarımızı səsləndiriblər.

Şagirdləri Mustafa Mehmandarovun dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

# "Təbəssüm üçün musiqi"

Bakı şəhəri uşaq musiqi və incəsənət məktəblərinin iştirakı ilə yaradıcılıq və mədəni mübadilənin təşviqinə yönəlmiş, şəhər sakinləri və qonaqların zövqünü oxşayan "Təbəssüm üçün musiqi" adlı silsilə tədbirlər həyata keçirilir.




Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən layihənin əsas məqsədi şəhərin müxtəlif məkanlarında (açıq havada) musiqi və incəsənət məktəbləri şagirdlərinin ifasında konsert proqramları təşkil etmək, gənc musiqiçi, rəssam və rəqqasların öz istedadlarını nümayiş etdirmələri üçün şərait yaratmaq, eyni zamanda şəhərin mədəni mühitinə özünəməxsus rəng qatmaqdır.

Silsilə tədbirlərin açılış konserti 28 May – Müstəqillik Günündə paytaxtdakı Fəvvarələr meydanında olub.

İyun ayında davam edəcək layihədə Bakı şəhərinin 20-dək musiqi və incəsənət məktəbi şagirdlərinin iştirakı planlaşdırılır.

Dünyanın bir çox paytaxt şəhərlərində ənənəvi olaraq şəhərin incəsənət kollektivləri açıq səhnə təqdimatları ilə özünəməxsus kolorit, fərqli ab-hava və baxımlı sənət nümunələri nümayiş etdirirlər. Bu da daha geniş ictimaiyyətlə canlı təmas və fərqli təqdimat üçün imkan yaradır. Paytaxtımızda da daha öncə belə tədbirlər təşkil edilib.

Belə təcrübədən faydalanaraq Bakı şəhərinin musiqi və incəsənət məktəbləri, mədəniyyət könüllülərinin iştirakı ilə paytaxtımızın mədəni mühitinin zənginləşməsinə töhfə verəcək layihə reallaşdırılır.

# "Bülbülün qonaqları" – Səid Rüstəmov yad edilib

Bülbülün Memorial Muzeyinin təqdim etdiyi "Bülbülün qonaqları" layihəsi çərçivəsində növbəti tədbir keçirilib. Bu dəfə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Səid Rüstəmov (1907–1983) yad edilib.



Muzeyin direktoru Fərqanə Cabbarova Bülbül və Səid Rüstəmovun yaradıcılıq əlaqələrindən danışıb. Səid Rüstəmovun 1932-ci ildə Bülbülün yaratdığı Elmi-Tədqiqat Musiqi Kabinetindəki fəaliyyətindən, xalq mahnı və rəqslərinin, aşıq mahnılarının nota köçürülməsində göstərdiyi xidmətlərdən bəhs edilib.

Bəstəkarın adını daşıyan 13 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri və "Bülbül vokal məktəbi" tələbələrinin iştirakı ilə Səid Rüstəmovun "İntizar", "Alagöz", "Hardasan?", "Bahar olsun", "Oxu, tar!", "Qurban adına", "Sərhədçilər marşı" və s. əsərləri səsləndirilib.

Qeyd edək ki, layihə üzrə bundan əvvəl bəstəkarlar Süleyman Ələsgərov, Qara Qarayev və yazıçı Məmməd Səid Ordubadi yad olunmuşdu.

# Uşaq Filarmoniyasında Oqtay Zülfüqarovun xatirə gecəsi

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Uşaq Filarmoniyasında ömrünün 60 ilindən çoxunu uşaqlara həsr etmiş bəstəkar Oqtay Zülfüqarovun 95 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilib.



Tədbirdə bəstəkarın yaxın dostu olmuş professor Vidadi Xəlilov xatirələrini bölüşüb.

Çoxsaylı uşaq mahnılarının müəllifi Oqtay Zülfüqarov ömrünün böyük hissəsini uşaqların əhatəsində keçirib. Yubiley gecəsi uşaqların hazırladığı konsert proqramı ilə yadda qalıb.

Proqramda bəstəkarın dillər əzbəri olan "Ad günü", "Vətən", "Bakı", "Göyərçin", "Nənə" və başqa mahnıları Oqtay Zülfüqarovun nəticələri və Dövlət Uşaq Filarmoniyasının "Şəms" uşaq xoru, "Güləbətin" vokal ansamblı tərəfindən böyük sevgi və həvəslə ifa olunub.

Sonda bəstəkarın oğlu Əməkdar incəsənət xadimi, bəstəkar Cahangir Zülfüqarov gözəl proqrama görə Dövlət Uşaq Filarmoniyasına minnətdarlığını bildirib.

# Ramiz Mirişlinin 90 illiyinə həsr olunmuş konsert

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında görkəmli bəstəkar, Xalq artisti Ramiz Mirişlinin (1934–2015) 90 illiyinə həsr olunmuş konsert keçirilib.



Əvvəlcə musiqişünas Güllü İsmayılova bəstəkarın həyat və yaradıcılığı haqqında danışıb.

Konsert proqramında Dövlət Mahnı Teatrının solistləri – Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovalar, Heydər Anatollu, müğənnilər Ayşən Mehdiyeva, Fəxri Kazım-Nicat, Aynur İsgəndərli, Rövşən Qəhrəmanov çıxış ediblər. İfaçıları teatrın instrumental ansamblı müşayiət edib.

Qeyd edək ki, müxtəlif janrlarda musiqi əsərləri yazan Ramiz Mirişlinin yaradıcılığında mahnılar xüsusi yer tutur. Bəstəkar dillər əzbəri olan "Bir könül sındırmışam", "Dalğalar", "Könül verdim", "Sənsən ürəyim", "Səndən danışdı", "Mən sənə neyləmişəm?", "Oxu, tar!", "Səadət", "Səni sevən baxışlar" və digər mahnıların müəllifidir.

**Lalə**

# Müstəqillik – xalqın milli sərvəti




Bölgələrdə 28 May – Müstəqillik Günü və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 106-cı ildönümü ilə əlaqədar müxtəlif səpkili tədbirlər keçirilib.

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən oxu zalında “Müstəqillik milli sərvətimizdir” adlı tədbir keçirilib. Tələbələr Vətənə, Ulu öndərə, müstəqilliyə həsr olunmuş şeirlər səsləndiriblər. Tədbirin sonunda “Müstəqilliyimiz əbədidir” adlı sərgiyə baxış olub.

Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzində “Müstəqillik ruhu yerli yazarların qələmində” adlı dəyirmi masa keçirilib. Bildirilib ki, müsəlman Şərqində ilk demokratik dövlət quruluşunu yaratmış xalqımız müstəqillik əzmini dünyaya nümayiş etdirib. Sonda müstəqilliyimizə həsr edilən videoçarx nümayiş olunub.

***

Əlamətdar gün münasibətilə Şəki-Zaqatala RMİ və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə tədbir keçirilib.

Tədbirin bədii hissəsində Şəki şəhər Uşaq incəsənət məktəbi kollektivinin ifasında Üzeyir Hacıbəylinin “Koroğlu” operasından “Uvertüra”, “Cəngi”, Cahangir Cahangirovun “İncəlik rəqsi”, Süleyman Ələsgərovun “Vətənimdir”, “Bilsəm sən gəlirsən”, Eldar Rəcəbovun “İlham Heydər oğlu” və “Qarabağ yallısı” kimi bəstəkar və xalq mahnıları səsləndirilib, milli rəqs nümunələri nümayiş olunub.

***

Ağdaş rayon Heydər Əliyev Mərkəzində Müstəqillik Gününə həsr olunan dəyirmi masa təşkil edilib. Çıxışlarda Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən söz açılıb. Vurğulanıb ki, Cümhuriyyətin yadigarı kimi üçrəngli bayrağımızın bu gün işğaldan azad olunmuş ərazilərdə dalğalanması Prezident İlham Əliyevin gələcək nəsillərə unudulmaz dövlətçilik əmanətidir.

***

Ağcabədi rayon Hacıbədəlli kənd Uşaq musiqi məktəbinin müəllim və şagird kollektivi Müstəqillik Günü münasibətilə tədbir keçirib. Tədbirdə Müstəqillik Gününə həsr olunmuş mahnılar səsləndirilib, məktəbin “Fidanlar” rəqs qrupu rəqs nümunələrini təqdim edib.

Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində (Mahrızlı kəndi) rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə birgə “Müstəqilliyimiz əbədidir” adlı tədbir keçirilib. Çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, Müstəqillik Günü və Ulu öndər Heydər Əliyevin müstəqil dövlətçiliyimizin qorunub saxlanılmasında misilsiz xidmətlərindən danışıblar. Tədbirin sonunda qonaqlar muzeyin eksponatları ilə tanış olublar.

***

Şərqi Zəngəzur RMİ-nin tabe müəssisələrində də Müstəqillik Gününə həsr olunan silsilə tədbirlər keçirilib. Tədbirlərdə ilk Cümhuriyyətimizin yaranma tarixi, qısa zamanda və çətin şəraitdə dövlət quruculuğu sahəsində görülən işlərdən söz açılıb, konsert proqramları təqdim olunub.






***

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lənkəran-Astara regional nümayəndəliyi ilə birgə “Azərbaycanın dövlətçilik tarixində Cümhuriyyətin rolu” adlı tədbir keçirilib.

Lerik rayon Heydər Əliyev Mərkəzi və Lerik şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyasının birgə keçirdiyi tədbirdə şagirdlərin ifasında vətənpərvərliyi tərənnüm edən şeirlər səsləndirilib. Sonda “İstiqlaliyyət” adlı sənədli film nümayiş olunub.





***

İmişli rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı, rayonun Qaragüvəndikli kənd klubu və Şahin Məmmədov adına Qaragüvəndikli kənd tam orta məktəbinin dəstəyi ilə “El bilir ki, sən mənimsən” adlı bayram konserti keçirilib. Rayonun mədəniyyət və incəsənət nümayəndələrinin ifasında vətənpərvərlik ruhunda mahnılar səsləndirilib, rəqslər ifa olunub, şeirlər qiraət edilib.

Oqtay Kazımi adına Astara şəhər Uşaq musiqi məktəbində “Təbiəti dilləndirən musiqi” adlı konsert proqramı təşkil edilib. Şagirdlərin ifasında rəqslər, mahnılar təqdim olunub, Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib.

Masallı rayon Mərkəzi Kitabxanasının Çaxırlı kənd kitabxana filialında Müstəqillik Gününə həsr olunmuş kitab sərgisi təşkil olunub.

***

Salyan rayon Mədəniyyət Mərkəzində keçirilən dəyirmi masada Azərbaycanın dövlətçilik tarixində silinməz iz qoymuş ilk Cümhuriyyətimizin yaranmasından, o dövrün ictimai, siyasi, eləcə də mədəni hadisələrindən bəhs olunub.

Hacıqabul rayon Heydər Əliyev Mərkəzində “Ümummilli lider Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinə verdiyi tarixi qiymət” adlı dəyirmi masa təşkil edilib. Natiqlər Müstəqillik Gününün tarixindən, Ulu öndərin Cümhuriyyət mirasına verdiyi yüksək dəyərdən söz açıblar. Tədbirin sonunda bu əlamətdar günə həsr olunan sənədli film nümayiş etdirilib.

Şirvan şəhərinin, Biləsuvar və Neftçala rayonlarının mədəniyyət müəssisələrində də əlamətdar günə həsr olunan tədbirlər, dəyirmi masalar və sərgilər təşkil edilib.

***

Şəmkir rayon Heydər Əliyev Mərkəzində Müstəqillik Günü ilə bağlı konfrans keçirilib. Çıxışlarda 1918-ci il mayın 28-də Azərbaycan xalqının müstəqillik ideallarının reallığa çevrilməsindən, cəmi 23 ay fəaliyyət göstərmiş Cümhuriyyətin həyata keçirdiyi islahatlardan söz açılıb.

Tovuz rayon Heydər Əliyev Mərkəzində “Müstəqilliyimiz əbədidir” mövzusunda tədbir təşkil edilib. Bildirilib ki, Müstəqillik Günü hər bir Azərbaycan vətəndaşının qürur günüdür. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış olub, mövzu ilə bağlı film izləyiblər. Təqdim olunan bayram konserti tamaşaçıların könlünü oxşayıb.

**Hazırladı: N.Məmmədli**

## Kitabxanada Xalq yazıçısının 110 illiyi münasibətilə tədbir

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən oxu zalında “Azərbaycan ədəbiyyatının İlyas Əfəndiyev zirvəsi” adlı tədbir keçirilib. Tədbir Xalq yazıçısı, görkəmli dramaturq İlyas Əfəndiyevin (1914–1996) anadan olmasının 110 illiyinə həsr edilib.



Çıxışlarda bildirilib ki, milli-mənəvi dəyərlərə hörmət İlyas Əfəndiyev yaradıcılığının əsas qayəsini təşkil edib. Onun yaradıcılığı üçün səciyyəvi cəhətlərdən biri cazibəli, təbii və canlı bir dildə yazması olub.

Tədbirdə tələbələrin ifasında edibin “Xurşidbanu Natəvan” pyesindən səhnə təqdim olunub. İştirakçılar “İlyas Əfəndiyev – 110” adlı sərgiyə baxıblar.

## Şamaxıda mədəniyyət işçisinin yubileyi qeyd edilib

Şamaxı rayon Mədəniyyət Mərkəzində Əməkdar mədəniyyət işçisi Fatmaxanım Quliyevanın 80 illik yubileyi münasibətilə tədbir keçirilib.

Əvvəlcə yubilyarın həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub. Şamaxının icra başçısı Tahir Məmmədov, Milli Məclisin deputatı Tamam Cəfərova və başqaları F.Quliyevanın ömür yolundan və fəaliyyətindən danışıblar.

Yubilyara fəxri fərmanlar və hədiyyələr təqdim olunub.

F.Quliyeva fəaliyyətinə verilən dəyərə görə tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

Bədii hissədə rayonun incəsənət kollektivləri nümayəndələrinin ifasında konsert proqramı təqdim olunub.

## “Hophopnamə” kitab mərkəzində yubilyar yazarla görüş

Mil-Muğan RMİ-nin təşkilatçılığı ilə “Hophopnamə” kitab mərkəzində jurnalist, yazar, mədəniyyət işçisi İradə Əlilinin 60 illiyi münasibətilə oxucularla görüşü keçirilib.




Tədbirdə Sabirabad RİH başçısının birinci müavini Həsən Həsənov, Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı, Mil-Muğan RGİİ-nin rəisi Nadir Quliyev, YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov, şəhid ailələri, qazilər, mədəniyyət işçiləri, rayon ictimaiyyətinin nümayəndələri və gənclər iştirak ediblər.

Tədbirin moderatoru Ağalar Ağammədov yazıçının həyat və yaradıcılığı barədə məlumat verib. Digər çıxış edənlər yaşarın yaradıcılığı haqqında söz açıb, təbriklərini çatdırıblar.

İ.Əlili görüşə görə təşkilatçılara və iştirakçılara təşəkkür edib, bir neçə şeirini səsləndirib. Müəllifin sözlərinə bəstələnmiş mahnılar ifa edilib.

## Dahi şairin 530 illiyinə həsr olunan ədəbi-bədii gecə

Neftçala rayon Xanoğlan Məmmədov adına Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Məhəmməd Füzulinin (1494–1556) 530 illik yubileyinə həsr olunan ədəbi-bədii gecə keçirilib.



Neftçala şəhər Camal İsmayılov adına Uşaq incəsənət məktəbində təşkil olunan gecədə Məhəmməd Füzulinin Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yerindən bəhs olunub. Qeyd edilib ki, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkar hərtərəfli biliyə malik mütəfəkkir kimi həyata, insana dərin məhəbbət aşılayıb. O, anadilli poeziyanın mükəmməl nümunələrini yaradaraq Azərbaycan ədəbi dilini daha da zənginləşdirib.

Şairin qəzəllərindən nümunələr səsləndirilib, muğam və təsniflər, “Leyli və Məcnun” operasından parçalar təqdim edilib. Məktəblilərin ifasında şairin “Meyvələrin söhbəti” əsərindən səhnəcik nümayiş etdirilib.

## Şuşa teatrı “Boy çiçəyi”ni Qubada göstərib

Şuşa Dövlət Musiqili Dram Teatrı Xalq yazıçısı İlyas Əfəndiyevin “Boy çiçəyi” lirik-psixoloji dramı əsasında hazırlanmış tamaşa ilə qubalı teatrsevərlərin qonağı olub.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında təqdim olunan tamaşanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimov, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı isə Azad Məmmədovdur.

ADPU-nun Quba filialının direktoru Yusif Alıyev bildirib ki, tamaşa Xalq yazıçısı, dramaturq İlyas Əfəndiyevin anadan olmasının 110 illiyi ilə əlaqədar nümayiş olunur.

Səhnə əsərində Əməkdar artistlər Nazir Rüstəmov və Azad Məmmədov, həmçinin Zəhra Salayeva və Püstəxanım Zeynalova rol alıblar.

Tamaşa tələbə və müəllim kollektivi tərəfindən maraqla qarşılanıb.

## Qəmbər Hüseynlinin xatirəsinə

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası “Gəncə və gəncəlilər” layihəsini növbəti dəfə təqdim edəcək. Layihənin budəfəki təqdimatı görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi Qəmbər Hüseynliyə (1916–1961) həsr olunacaq.

İyunun 1-də bəstəkarın əziz xatirəsinə həsr olunmuş “Ay işığında” adlı konsert proqramı keçiriləcək.

Gecədə bəstəkarın “Ay işığında”, “İlk məhəbbət”, “Tel nazik”, “Tellər oynadı”, “Çeşmə başında”, “Düşər yadıma”, “Gecələr uzanaydı”, “Dolanım başına” və digər mahnıları səsləndiriləcək.

***




Gəncə Dövlət Filarmoniyası 30 may – 1 iyun tarixlərində Qəmbər Hüseynli adına “Cücələrim” uşaq festivalı da keçirir.

Filarmoniyadan bildirilib ki, Gəncə-Daşkəsən Regional Mədəniyyət və Təhsil idarələrinin təşkilatçılığı ilə reallaşan festivalın əsas məqsədi uşaqların musiqi dünyasının zənginləşdirilməsi, uşaq mahnılarını təbliğ etməkdir.

## Bakı Dövlət Sirki Saatlıda



Bakı Dövlət Sirki 1 iyun – Beynəlxalq Uşaqları Müdafiə Günü ilə əlaqədar Saatlı rayon Mədəniyyət Mərkəzində şou-proqramla çıxış edib.

Şən klounlar, illüziyaçı və akrobatlar, əhliləşdirilmiş itlər, halqalarla rəqs edən göyərçinlərlə təqdim olunan proqram maraqla qarşılanıb.

Şəhid övladlarının da izlədiyi şouda bir-birindən maraqlı, orijinal çıxışlar və nömrələr balacalarda unudulmaz təəssürat yaradıb.

## Almaniya səfiri Qarabağda

Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemann Şuşa şəhərində olub. Diplomat bu barədə sosial şəbəkə hesabındakı paylaşımında şəhərə vurulduğunu və burada aparılan yenidənqurma-bərpa işlərinə heyran olduğunu bildirib.

Səfir Azərbaycan Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimovla görüşdə görülən işlər barədə dolğun məlumat aldığını vurğulayıb. “Mən bura yenə gələcəyəm”, – deyə o “X” hesabında yazıb.

Almaniya səfiri Qarabağ səfəri zamanı Beynəlxalq Qırmızı Xaç Komitəsinin (İCRC) Bərdədəki nümayəndələri ilə də görüşüb. Diplomata işğaldan azad olunmuş ərazilərdəki mina təhlükəsi barədə məlumat verilib.



“Keçmiş təmas xəttinə yaxın yaşamaq insanlar üçün ağır olmuşdur. Mina riski hələ də bir çox ərazilərdə təhlükə yaratmaqdadır”, – deyə paylaşım edən diplomat bildirib ki, Almaniya Azərbaycanın Qarabağdakı yenidənqurma səylərini dəstəkləyir.

## Qubadlının Mahruzlu və Zilanlı kəndlərində də tikinti başlanıb

Qubadlı rayonunun Mahruzlu və Zilanlı kəndlərinin yenidən qurulmasına başlanılıb.

Cəbrayıl, Qubadlı və Zəngilanda Bərpa, Tikinti və İdarəetmə Xidmətindən verilən xəbərə görə, hər iki kəndin baş planına əsasən, torpaq işləri başa çatdırılıb, evlərin bünövrəsi qazılıb və beton işləri görülür.

Mahruzlu kəndinin layihələndirilən ümumi ərazisi 197 hektar təşkil edir. Birinci mərhələdə 40,27 hektar ərazidə 190 evin tikilməsi planlaşdırılır. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, bazar kompleksi, idman-sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, çayxana da nəzərdə tutulub.

Zilanlı kəndinin ümumi ərazisi 180,04 hektar təşkil edir. Birinci mərhələdə 43,5 hektar ərazidə 193 evin tikintisi nəzərdə tutulub. Bu kənddə də məktəb binası, uşaq bağçası, ailə-sağlamlıq mərkəzi, inzibati bina, klub-icma və idman mərkəzi yaradılacaq.

# Firəngiz Əlizadənin “Nağıllar” simfonik poeması Londonda ifa edilib

Dünyanın ən məşhur konsert zallarından birində – Londondakı “Royal Festival Hall”da “Voices from East” (“Şərqin sədaları”) devizi altında simfonik musiqi axşamı olub. Dirijor Kiril Karabits (Ukrayna, Fransa) artıq uzun illərdir ki, özünün dünya turları konsertlərinə Firəngiz Əlizadənin əsərlərini, o cümlədən “Nizami Cosmology”ni daxil edir.

Məxsusi olaraq Luzern Beynəlxalq Festivalı üçün yazılmış məşhur simfonik poema – “Nağıllar” onun parlaq interpretasiyası ilə dəfələrlə ifa edilib. Luzerndə bu canlı simfonik poema maestro Suzanne Mäyalki (Finlandiya) tərəfindən təqdim olunub və beynəlxalq mətbuatda böyük rezonans doğurub. O vaxtdan “Nağıllar” zəmanəmizin bir çox məşhur dirijorlarının, o cümlədən Daniel Kleiner, Yan Dvorak, Kristian Sikorski, Muhai Tanq və başqalarının repertuarında möhkəm yer alıb.


Boosey & Hawkes
1 día

This Sunday, as part of his final season at the helm of the Bournemouth Symphony Orchestra, Kirill Karabits - Кирило Карабиць brings "Voices from the East" to the Royal Festival Hall in London, featuring works from Boosey & Hawkes · Sikorski Berlin composers Ali-Zadeh, Garayev, Kancheli, Terterian, and Lyatoshinsky.

Learn more: https://www.boosey.com/cr/news/Kirill-Karabits-brings-three-_Voices-from-the-East_-concerts-to-London/102439

Azərbaycan Bəstəkarlar İttifaqından bildirilib ki, K.Karabitsin interpretasiyasında bu musiqi son vaxtlar Amerikada, Fransada, Almaniyada, Monte-Karloda böyük uğurla ifa olunur. Azərbaycan bəstəkarının əsərinin “Royal Festival Hall”da ifası Britaniya ictimaiyyətinin böyük marağına səbəb olub.

“Boosey&Hawkes” musiqi nəşriyyatının nümayəndələri təəssüratlarını bölüşüblər: “Məşhur müasir bəstəkar Firəngiz Əlizadənin musiqisi əsl sensasiya yaradıb. O, konsert proqramında yeganə qadın bəstəkar idi, lakin eyni zamanda, onun musiqisi həyəcanlı temperamenti, heyrətamiz dinamikası və yüksək peşəkarlığı ilə bizi valeh etdi. Bundan əlavə, dirijor K.Karabits “Nağıllar” simfonik poemasının ifasından əvvəl qısa annotasiya verdi ki, bu da bizi müasir simfonik musiqinin bu gözəl əsərini daha yaxından anlamağa kömək etdi”.

# “Varlı rəssam deyiləm, pul üçün işləməmişəm”

## 96 yaşlı rəssam Odtəkin Ağababayev: “Ailədə hamı eyni məqsədə xidmət edəndə yaşamaq və yaratmaq mənalı olur”

Mayın əvvəlində Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda maraqlı sərginin şahidi olduq. “Bir sərgi – bir ailə” devizi ilə təqdim olunan sərgidə Ağababayevlər ailəsinin rənglər dünyasına səyahət etmişdik. Serginin açılışında ailənin rəssamlığa yol açan nümayəndəsi 96 yaşlı Əməkdar rəssam Odtəkin Ağababayevin şəxsən qonaqları qarşılaması özü də bir bayram əhvalı yaradırdı.



Qocaman rəssamla, qısa da olsa, danışıb müsahibə ala bildim. Bu şəraiti yaradığına görə isə, ilk növbədə, Odtəkin müəllimin qızı, rəssam Tatyana Ağababayevaya təşəkkür edirəm.

*– Odtəkin müəllim, sənətə gələn yolunuzu necə xatırlayırsınız?*

– Mən ona görə rəssam olmağı qərar verdim ki, atam İsgəndər Nəfisi incəsənəti çox sevirdi və bu sahədə istedadlı idi. O, ədəbiyyat, rəssamlıq və musiqi ilə məşğul olur, “Azərnəşr”də tərcüməçi işləyirdi. Yadımdadır, atam mənim getdiyim bağçanın divarlarına maşında gedən pionerlər, bayraq və s. rəsmlər çəkmişdi. Özüm isə hələ 5 yaşım olanda evimizin ağ divarlarında adam rəsmi, daha sonra milli mətbəximizdən küftə-bozbaş rəsmi çəkmişdim. İndi məni uzaq uşaqlıq illərimə qaytardınız və bir anlıq xatirələrə daldım...

*– Xatirələr demişkən, maşallah, 96-nı haqlamısınız. Bu rəqəm sizdə hansı təəssürat yaradır?*

– Düzünü deyim, özümü bu yaşda hiss etmirəm, qəlbim sanki hələ də gəncdir. Sadəcə, 96 özünü onda göstərir ki, gəzməkdə çətinlik çəkirəm. Bir müddət əvvəl yıxılıb ayağımı sındırdım, buna görə də ağır cərrahi əməliyyatlar keçirdim. Bundan sonra çətinliklər yarandı. Hazırda gördüyünüz kimi, çəliklə gəzirəm. Belə baxanda isə bu gün həyatda hər şey mənə maraqlıdır. Hər gün səhər internetdə xəbərləri oxuyuram, qəzetləri oxuyuram, televizorda maraqlı filmləri izləyirəm. Bağda olmağı çox sevirəm və gücüm çatdığı qədər, az da olsa, işləməyə çalışıram. Məsələn, su şlanqını götürüb ağacları, gülləri sulayıram...

*– Yaş həm də təcrübədir. 96-dan bu həyat necə görünür?*

– Maraqlı və möcüzəli. Amma insan bu yaşda artıq ən çox yanında olmayanları xatırlayır: valideynlərimi, həyat yoldaşım Valentina xanımı, oğlum və yaxın dostlarımı. Onların yoxluğuna çox təəssüflənirəm.

*– Sizi kədərləndirmək istəməzdim. Ona görə də sənət söhbətlərinə keçid edək. Sizcə, uğurlu rəssam fikri necə səslənir və özünüzü uğurlu rəssam hesab edirsinizmi?*

– Mən özümü heç vaxt varlı rəssam hesab etməmişəm və pul üçün işləməmişəm. Mənə görə, uğur rəngkarlığı daha dərindən dərk etməyin özündədir. Sənətdə uğur yeniliklərə yol açmaqdır. Mənim metodum 50-ci ildən bu günə kimi dəyişikliklərə tab gətirərək və eyni zamanda ən yaxşı yenilikləri tətbiq edərək davam edib. Palitramda rənglər daha işıqlı və cəlbedici olub. Qara rəngdən çox istifadə etməyi heç vaxt sevməmişəm. Buna görə də çoxları mənim işlərimi işıqlı və əlvan əsərlər kimi qəbul edirlər. Bunun özü də bir uğurdur.

*– Bəs yaradıcılığınıza hansı amillər təsir edib?*

– Yəqin ki, əsas pedaqoqlar baxımından bəxtim gətirib. Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində müəllimim görkəmli rəssamımız Böyükağa Mirzəzadə olub. V.Surikov adına Moskva Rəssamlıq İnstitutunda isə Pavel Malkovdan dərs almışam.



Bundan əlavə, təsirləndiyim rəssamlar da olub. Məsələn Pol Qogeni misal çəkə bilərəm.

*– Bəs hansı rəssamların işini hər zaman bəyənmisiniz?*

– Mixail Vrubel, Pol Sezan, Van Qoq, Pikasso, Matiss və digərləri. Yaşıdlarımdan isə Viktor Popkov, Qorxmaz Əfəndiyev, Cavad Mircavadov, Tahir Salahov, Toğrul Nərimanbəyov, Anatoli Zverev, İvan Lubennikov, Ucal Haqverdiyev. Əfsus ki, indi adlarını sadaladığım həmyaşıdlarım dünyadan köç ediblər. Bu gün isə, Allah cansağlığı versin, Ömər Eldarov və Fərhad Xəlilovun əsərlərini çox bəyənirəm.

*– Həmkar dostlarınızla görüşürsünüz?*

– Təəssüf ki, əsl dostlarımın çoxu dünyadan köçüb. Həmyaşıd sənət dostlarımla arada telefonla zəngləşirik. Şəhərdəki və bağdakı yaşıdlarımla tez-tez görüşüb söhbətləşirik.

*– Sənətdə ən yaxın dostunuz kim olub?*

– Sənətdə ən yaxın dostum və həmfikrim həyat yoldaşım olub. Ən yaxşı dostlarım isə Qorxmaz Əfəndiyev və Yuri Tarasov idi.

*– Hazırda sizin ocaq rəssamlar ailəsi kimi tanınır.*

– Ailədə hamı eyni məqsədə xidmət edəndə yaşamaq və yaratmaq mənalı olur.

*– Bəs sənətkara xoşbəxt olması üçün nə lazımdır?*

– Əsl xoşbəxtlik üçün rəssama lazım olan iki əsas amil var. Birincisi, yaradıcılığı cəmiyyət tərəfindən qəbul edilib sevilsin və insanlara sevinc gətirsin. İkincisi isə, ailəsində və yaşadığı ölkədə əmin-amanlıq olsun.

*– Gənc rəssamlara nə arzulayardınız?*

– Onlara arzum budur ki, ustad sənətkarlardan öyrənsinlər, naturadan çəkməyə alışsınlar. Həm də davamlı olaraq təxəyyüllərini inkişaf etdirsinlər.

*– Maraqlı müsahibəyə görə təşəkkür edirəm.*

**Lalə Azəri**

# Azərbaycan-Kərkük musiqi əlaqələri tədqiq olunur

Kərkük sevgisi, həsrəti qərib soydaşlarımızı – İraq türkmanlarını tanıyandan bəri toplum olaraq qəlbimizdə yuva qurub. Səid Sinanın Nərminə Məmmədova ilə yadigar duetlərini sevə-sevə dinləyəndən, professor Qəzənfər Paşayevin “Altı il Dəclə-Fərat sahilində” kitabını acgözlüklə oxuyandan içimizdəki Kərkük sevdası artır ki, azalmır. Amma sevdiyini tanımaq, ona yaxından bələd olmaq, bizim söz açdığımız kontekstdə həm də araşdırmaq bu gözəl hissin ən yaxşı təzahürü olmazmı?

Xəbər tutanda ki, bu günlərdə Azərbaycan Milli Konservatoriyasında “Kərkük musiqi folklorunun tədqiqi məsələləri” mövzusunda elmi konfrans keçirilib, maraq bizə güc gəldi. Konfrans iştirakçılarından gənc musiqişünas, Kərkük Mədəniyyət Dərnəyinin fəxri üzvü Zeynəb Bağır ilə əlaqə saxlayıb bu maraqlı tədbir barədə ətraflı məlumat əldə etməyə çalışdıq.

– Azərbaycan-Kərkük mədəni əlaqələrinin tarixi məlumdur. Lakin bizdə indiyədək Kərkük musiqisi sistemli araşdırılmayıb. Belə bir tədqiqatı elmi rəhbərim, tanınmış musiqişünas, Milli Konservatoriyanın elmi işlər üzrə prorektoru Əməkdar incəsənət xadimi Lalə Hüseynova ilə birlikdə başlamışıq. Bir müddətdir ki, Kərkükdən Azərbaycana gələn ədəbiyyat və sənət adamları ilə görüşür, fikir mübadiləsi aparırdıq. AMEA-nın Folklor İnstitutunda fəaliyyət göstərən Kərkük folkloru üzrə əlaqələndirmə şurası ilə də münasibətimiz var. Mart ayında Kərkük Mədəniyyət Dərnəyinin rəhbəri Şəmsəddin Kuzəçi ilə konservatoriyada görüşdük. Öyrəndik ki, may ayında Kərkük ziyalıları və sənət adamları böyük bir heyətlə Bakıda olacaqlar. Təklif etdim ki, Azərbaycan və Kərkük musiqiçilərinin iştirakı ilə konsert proqramı hazırlayaq. Şəmsəddin Kuzəçi təkliflə həvəslə razı oldu. Həm də qərara gəldik ki, Kərkük musiqisinə dair elmi konfrans keçirək. Məsələ ondadır ki, Azərbaycanda görkəmli alim Qəzənfər Paşayevin açdığı cığırla gedərək Kərkük folklorunu və ədəbiyyatını araşdıran mütəxəssislər yetişib, musiqidə isə bu istiqamətdə çalışmalara indi başlayırıq.

Qeyd edək ki, “Kərkük musiqi folklorunun tədqiqi məsələləri” adlı konfransda filologiya elmləri doktoru, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, Kərkük Mədəniyyət Dərnəyinin rəhbəri, yazıçı-publisist Şəmsəddin Kuzəçi, Türkiyədən Qazi Universitetinin professoru, opera ifaçısı Ömər Türkmənoğlu makam və xoyrat ifaçıları Mehmet Kayababa və Mehmet Neccar məruzələrlə çıxış ediblər. Zeynəb Bağır isə “Azərbaycan-Kərkük musiqi əlaqələri” mövzusunda araşdırmalarından söz açıb.

Konfransdan sonra “Kərkükdən Azərbaycana” adlı konsert proqramı təqdim olunub. Qonaq ifaçılar Mehmet Neccar, Ömər Türkmənoğlu, Mehmet Kayababa ilə yanaşı, Azərbaycanın Əməkdar artisti Nuriyyə Hüseynova, Sədəf Budaqova, Ayşən Mehdiyeva, Yaqut Xəlilova, Pərvaz İbrahimli və digərləri çıxış ediblər.

Kərkük musiqi folklorunun öyrənilməsində ilk addımın uğurundan həvəslənən gənc musiqişünas deyir:

– Milli Konservatoriya ilə Kərkük Mədəniyyət Dərnəyi arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Düzdür, bizim gördüyümüz bu iş dəryadan bir damla timsalında olsa da, hər halda ilk addım atılıb. Azərbaycan türklərinə ən yaxın, ən doğma olan Kərkük musiqi folklorunu öyrənməyə ömür həsr etmək lazımdır. Üstəlik, türkmanlar təkcə Kərkükdə deyil, İraqın digər böyük şəhərlərində və başqa ölkələrdə də yaşayıb-yaradırlar. Türkman musiqi folklorunu öyrənmək, Azərbaycan musiqişünaslığın elmində kərküksünaslığın istiqamətini də şaxələndirəcək.

**Gülcahan Mirməmməd**

# Bu dəfə filmləri tələbələr çəkəcək

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyi tərəfindən keçirilən film layihələri müsabiqəsində tələbə filmləri kateqoriyaları üzrə qalib gələn layihələrin maliyyələşməsinə start verilib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən “Tədris-Film” studiyasının “Starın hekayəsi”, “Şirin yuxu”, “Tullantılar dünyası”, “Ailə tablosu”, “Biçilmiş don”, “Çağrılmamış qonaq”, “İnam”, “Balıqçı kafesində görüş”, “Dəyişə bilməyən adam”, “Düşmüş mələk”, “Fundament”, “Mühafiz” filmləri tələbələr tərəfindən ərsəyə gətiriləcək.

Müsabiqənin tələbə filmləri kateqoriyaları üzrə kuratoru Əməkdar incəsənət xadimi, kinorejissor Elxan Cəfərovdur.

# Elçin Əzizovun “Kəpənəksiz opera”sı

Azərbaycanın Xalq artisti, “Bolşoy Teatr”ın solisti Elçin Əzizov mayın 27-də Moskvadakı “Qelikon-Opera” teatrında yenidən konsert-stendap ilə tamaşaçıların qarşısına çıxıb.



Müğənni yumora olan sevgisini opera sənəti ilə birləşdirdiyi “Kəpənəksiz opera” adlı proqramla ilk dəfə fevralın 10-da çıxış etmişdi. Tamaşaçılardan gələn çoxsaylı xahişləri nəzərə alan Elçin Əzizov layihəni təkrarlayıb.

Tamaşaçılar Elçin Əzizovun repertuarından məşhur ariyalara qulaq asıblar. Müğənni, həmçinin böyük pedaqoqlar və rejissorlarla birgə fəaliyyətindən bəhs edib, şəxsi həyatı və yaradıcılığı ilə bağlı maraqlı hadisələri auditoriya ilə bölüşüb.

Konsertdə müğənnini Konstantin Çudovskinin rəhbərliyi ilə Dövlət Kreml Orkestri müşayiət edib.

# Dövlət Mahnı Teatrında ukraynalı müğənninin konserti

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında “Roman@Big band” adlı konsert proqramı təqdim olunub.



Mayın 25-də keçirilən konsertdə ukraynalı müğənni Roman Azərbaycanın Əməkdar incəsənət xadimi Əlibala Rzayevin rəhbərliyi ilə Dövlət Nəfəs Orkestrinin müşayiətində caz və estrada nümunələrini ifa edib.

Proqramda M.Maqomayev, F.Sinatra, C.Koker, T.Cons, E.Fitscerald və L.Armstronqun repertuarından mahnılar səslənib.

Roman “Ölkənin səsi 7” (Potapın komandası) televiziya şousunda iştirak edib, ölkəsində və xaricdə tanınıb.

# BMA-nın tələbəsi İstanbulda müsabiqədə qalib olub

25-26 may tarixlərində İstanbulda Leyla Pınar adına VI Beynəlxalq Barokko Vokal Müsabiqəsi keçirilib.



Türkiyə, Azərbaycan, Rusiya, Bosniya-Herseqovina və digər ölkələrdən 57 vokalçı iştirak edib ki, onlardan 26 nəfəri ikinci tura keçməyi bacarıb. Final mərhələsində öz məharətini göstərmək şansı isə cəmi 12 ifaçıya nəsib olub.

Müsabiqədə ölkəmizi təmsil edən Bakı Musiqi Akademiyasının (BMA) III kurs tələbəsi Kənan Rəhmanzadə üçüncü mükafata layiq görülüb. İştirakçılar barokko musiqisinin ən gözəl nümunələrini yaratmış Hendelin, Vivaldinin və digər bəstəkarların əsərlərini münsiflər heyətinin qarşısında ifa ediblər.

Kənan Rəhmanzadə Əməkdar artist, BMA-nın Solo oxuma və opera hazırlığı kafedrasının baş müəllimi İlham Nəzərovun kursunda təhsil alır. Müəllim yetirməsinin bu uğurunu yaxşı nəticə kimi qiymətləndirib: “Barokko musiqisi Azərbaycanda o qədər də geniş yayılmasa da, Kənanın qələbəsi göstərir ki, bizim tələbələr hər janrda oxumağı bacarırlar”.

# “Sənsiz” Qazaxıstana gedir

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı 3–9 iyun tarixlərində Qazaxıstanda keçiriləcək postsovet ölkələri gənclərinin V Teatr Forumunda iştirak edəcək.

Teatrşünaslar, dramaturqlar və teatr rəssamlarının qatılacağı forumda gənc rejissorlar da öz tamaşalarını təqdim edəcəklər. Forumda Azərbaycanı gənclərdən Cavid Zeynallı, Dağlar Yusif, Abdulla Elşadlı, Sahib Əhmədov, Səbinə Haqverdiyeva, Elmira Üzeyirova və Fərəh Quliyeva təmsil edəcəklər.

Forumda (7 iyun) K.Kujamyarov adına Dövlət Musiqili Komediya Teatrında Akademik Milli Dram Teatrının “Sənsiz” tamaşası nümayiş olunacaq.

Yazıçı-dramaturq Şıxəli Qurbanovun “Sənsiz” pyesi əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Nihad Qulamzadə, bəstəkarı Vüqar Babayev, rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Vaqifoğlu, rejissor assistentləri Xanım Həsənova və Könül Kərimovadır. Rolları Xalq artisti Mehriban Zəki (Sevinc), Əməkdar artist Füzuli Hüseynov (Tərlan), aktyorlar İlahə Həsənova (Maral), Elçin Əfəndi (Fərhad), Elsevər Rəhimov (gənc Tərlan), Lalə Süleymanova (gənc Sevinc) canlandırırlar.

Forum çərçivəsində Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının görüşü də keçiriləcək. Görüşdə Azərbaycan Teatr Xadimləri İttifaqının sədri vəzifəsini icra edən Xalq artisti Hacı İsmayılov iştirak edəcək.

# Cümhuriyyət "Azərbaycan"ının X cildində nələr var?




ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Cümhuriyyət dövrü "Azərbaycan" qəzetinin (1918–1920) tam külliyyatının nəşri həyata keçirilir.

20 cilddə nəzərdə tutulan toplunun X cildi işıq üzü görüb. Bu cild qəzetin 1919-cu ilin iyul ayını (215– 239-cu nömrələr) əhatə edir.

Külliyyatın bu cildində 1919-cu ilin iyul ayında Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi daxili və xarici siyasət, ölkəmizdə və dünyada baş verən hadisələrə dair xəbərlər, məqalələr yer alıb. Nəşrdə sözügedən dövrdə Ermənistanın Azərbaycana ərazi iddialarının səngimədiyi, bədnam qonşularımızın Naxçıvana sahiblənmək istiqamətində atdığı addımlarla bağlı informasiyalar verilib. Vaxtilə qəzetdə silsilə şəklində dərc olunmuş "Ermənistanda müsəlmanların yaşayışı" adlı məqalələr Qərbi Azərbaycanda – öz ata-baba yurdlarında soydaşlarımıza qarşı ermənilərin qeyri-insani rəftarı, onları həmin ərazilərdən didərgin salmaq məqsədilə insanların başına açdığı oyunlar geniş işıqlandırılıb.

Bundan əlavə, 1918–1919-cu illərdə Rusiyada vətəndaş müharibəsi fonunda Azərbaycanın cənub bölgəsində baş verən hadisələr, qondarma "Muğan Sovet Respublikası"nın yaradılması və sonradan Azərbaycan Xalq Cümhuriyyətinin tərkibinə daxil edilməsi ilə bağlı materiallar oxucuların diqqətinə çatdırılır.

Külliyyatın bu cildində Cümhuriyyətin mədəni həyatı da öz əksini tapıb, dövlət teatrında və digər səhnələrdə göstəriləcək tamaşaların anonsu, habelə həmin dövrdə Bakıda və Şuşada təşkil olunan "Şərq konsertləri" haqqında da məlumat verilir.

Xatırladaq ki, "Azərbaycan" qəzetinin tam külliyyatının bundan öncə çapdan çıxan I cildi 1918-ci ilin sentyabr-oktyabr, II cild həmin ilin noyabr, III cild 1918-ci ilin dekabr, IV cild 1919-cu ilin yanvar, V cildi həmin ilin fevral, VI cild mart, VII aprel, VIII cild may, IX cild iyun ayını əhatə edib.

Qəzetin əski əlifbada (ərəb qrafikalı Azərbaycan əlifbası) olan mətnləri filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli və filoloq, tərcüməçi Azad Ağaoğlu tərəfindən transliterasiya olunub. Nəşrin elmi redaktoru akademik Teymur Kərimlidir.

# "Qəhrəmanlığın Şəhriyar zirvəsi"

Ağdam Muğam Mərkəzində 44 günlük Vətən müharibəsinin şəhid giziri Şəhriyar Quliyevin xatirəsinə həsr olunmuş "Qəhrəmanlığın Şəhriyar zirvəsi" filminin təqdimatı keçirilib.

Tədbirdə qəhrəmanın döyüş yolundan, şəhid ailələrinə, qazilərə göstərilən dövlət qayğısından bəhs edilib. Bildirilib ki, Şəhriyar Quliyev Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzuli və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, böyük şücaət göstərib.

Oktyabrın 23-də Qubadlı rayonu uğrunda döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən sonra ölkə başçısının müvafiq sərəncamları ilə "Qarabağ" ordeni, "Vətən uğrunda", Cəbrayıl, Füzuli və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.

Tədbirin gedişində Şəhriyar Quliyevə həsr olunmuş şeirlər səsləndirilib, Ağdam Musiqi Kolleci "Qarabağ" instrumental ansamblının təqdimatında vətənpərvərlik ruhunda musiqi nömrələri və kompozisiyalar təqdim edilib.

Filmin nümayişindən sonra çıxış edən şəhidin valideynləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər.

# İstiqlal məfkurəli mübariz şair

**Ümgülsüm Sadıqzadə – 125**

XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühitində öz imzası ilə seçilən, milli düşüncəli şairlərdən biri də Ümgülsüm Sadıqzadə olub. İstiqlalımızın intişar tapmasından hədsiz məmnun olan, qələmə sarılan şair vətənpərvərlik ruhunda poeziya çələngi toxuyub. Bu il istiqlalçı şairin anadan olmasının 125 illiyidir.

Ümgülsüm Əbdüləziz qızı Sadıqzadə 1899-cu ildə Bakının Novxanı kəndində ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini atasından alıb, ərəb və fars dillərini öyrənib. Kiçik yaşlarından ədəbiyyata, poeziyaya maraq göstərib. 1914-cü ildən şeirləri "İqbal", "Yeni iqbal", "Açıq söz", "Dirilik", "Məktəb", "Azərbaycan" və digər qəzetlərdə dərc olunub. 1915-ci ildə qələmə aldığı "Solğun çiçək" adlı hekayəsi isə "Qurtuluş" jurnalının elan etdiyi müsabiqədə mükafata layiq görülüb.

Ümgülsüm Sadıqzadə gənc yaşlarından dövrün ictimai siyasi hadisələrinə diqqət göstərib, şair qəlbi ilə öz münasibətini bildirib. I Dünya müharibəsində (1914–1918) Osmanlı dövlətinin məğlub olması ilə əlaqədar Bakıya əsir düşmüş minlərlə türk əsgər və zabiti gətirilir. Onlar çox ağır şərtlərdə Nargin (Böyük Zirə) adasında saxlanılır. Bundan xəbər tutan şair bərk sarsılır. 1917-ci ildə "Turan düdüyü" adlı şeirini qələmə alır. Müəllif "türk ruhu əsarətlə barışmayacaq, nə olursa olsun, qurtuluş yolu tapacaq və qalib gələcək" deyir. Şeirdə həm də iki türk xalqının bir-birinə arxa duracağına əminlik ifadə olunur:

*Unudulmaz dərdim,*
*ovunmaz qəlbim,*
*Gülsə cahan, gülməz*
*bənim taleyim,*
*Gəl yaramı sən özün sar,*
*sevgilim,*
*Duyulmaz, dərdimə*
*dərman nerədə?*

*Dağıtdılar yuvasını bülbülün,*
*Xəzan vurdu yaprağını*
*hər gülün,*
*Susdurdular nəğməsini bir elin,*
*Canana can verən*
*o can nerədə?*

Məlum olduğu kimi, 1917-ci ildə çar Rusiyasında iğtişaşlar baş qaldırır, imperiya süqut edir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulur. Cümhuriyyətin ayaq üstə durmasına qardaş Türkiyə (Osmanlı) dövləti böyük dəstək verir. Buna çox sevinən şair qəlbində baş qaldıran düşüncələrini poetik misralara çevirir. "Türk ordusuna", "Ey türk oğlu!", "Çəkil, dəf ol!", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" adlı şeirləri işıq üzü görür.

Ümgülsüm Sadıqzadə 1920-ci ilin 28 aprel işğalından çox pərişan olur və "Hicran" şeirini yazır. Azərbaycan bayrağı Parlament binasının üstündən götürüləndə o, "Bayrağım enərkən" şeirini qələmə alır. Onun istiqlal ruhlu şeirləri 1920–1930-cu illərdə Türkiyədə məskunlaşan azərbaycanlı siyasi mühacirlər arasında da geniş yayılır. Araşdırmalarda M.Ə.Rəsulzadənin mühacirətdə yazdığı əsərlərində həmin şeirlərdən də bəhs etdiyi bildirilir.

Tədqiqatçı Nəcibə Bağırzadə yazır ki, Ümgülsüm Sadıqzadə Azərbaycan milli istiqlalının gerçəkləşməsi üçün həm də əməli şəkildə mübarizə aparıb. Hər kişinin cəsarət edib deyə bilmədiklərini bu zərif olduğu qədər də üsyankar qadın bütün sərtliyi ilə dilə gətirib. Müəllif 28 may 1925-ci ildə Azərbaycan Cümhuriyyətinin qurucusu Rəsulzadəyə ithaf etdiyi "Bən" şeirini qələmə alıb. Şeirdə bolşeviklərin işğalçılıq siyasətinin mahiyyəti açılır. Bildirilir ki, kommunistlər onun yurdunu yetim buraxıb. Üçrəngli bayrağı Azərbaycan xalqının başı üzərindən endirib. Ancaq o bayraq bir gün yenidən yüksələcək. Çünki Azərbaycan xalqının ruhu kommunizmlə deyil, millətçiliklə döyünməkdədir:



*Kommunist, yurdumu*
*buraxdın yetim...*
*Sanma ki, bununla*
*ölən yigidəm.*
*Sana baş əyməyən*
*nasionalistəm,*
*İstiqlalın ilk qurbanı bənəm...*

*Səndə "oraq" varsa,*
*bənim "ay"ım var,*
*Oğuzdan aldığım*
*altun yayım var,*
*Milliyyət denilən*
*bir sarayım var,*
*Yaşlı diyarın göy*
*pasibanı bənəm...*

Ümgülsüm Sadıqzadə də işğaldan sonra Bakıda bolşeviklərin haqsız təqib və təhdidləri üzündən ailəsi ilə birlikdə Xızıya köçür. Şəhərdən uzaqlaşsalar da, 1937-ci ildə həyat yoldaşı görkəmli yazıçı, tənqidçi Seyid Hüseyn həbs edilərək bir il sonra güllələnir. Ümgülsüm də "xalq düşməni"nin həyat yoldaşı kimi dindirilir. Mənzilində axtarış aparılır, əmlakları müsadirə olunur. Şəhərdə əsərlərinin satışı və oxunması qadağan edilir. Bütün bunlara baxmayaraq, Ümgülsüm Sadıqzadə milli istiqlalın bərpa olunacağına inamını itirmir. Bayıl həbsxanasında ikən belə Sovet rejimini ittiham edən "Xəzərə xitab" şeirini yazır:

*Gözümüz yaşlıdır*
*sinəmiz dağlı,*
*Mən deyim dərdimi,*
*dinlə ey dəniz!*
*Ana qəlbi olur balaya bağlı,*
*Dinlərmisən məni,*
*söylə, ey dəniz?*

*Bir gecə yarısı əziz balamız*
*Alındı əlimizdən bir laçın kimi.*
*Söndü işığımız, uçdu yuvamız,*
*Həyat tarixində bunu*
*gördünmü?*

O, həbsdə olduğu müddətdə həm də "Qala xatirələrim" adlı xatirat yazır. Bir neçə ay Bayıl həbsxanasında saxlanılır. Sonra sorğusuz-sualsız 8 il həbs cəzasına məhkum edilir. Rusiyanın Mordoviya vilayətindəki Temlaq islah əmək düşərgəsinə göndərilir.

Haqsızlıq burulğanında çırpınan məsum şairənin qırılmayan ümidi duyğulu qəlbini titrədir. "Hicran" şeirində istiqlalını itirən Azərbaycan xalqının əsirlik həyatını, ağrılarını yada salır.

*Günəşim bir daha*
*doğmayacaqmı?*
*Vəhşi qaranlığı*
*boğmayacaqmı?*
*Kölgələri şəfəq*
*qovmayacaqmı?*
*Sordum, "ümidini qırma"*
*dedilər!*

Ümgülsüm Sadıqzadə 1943-cü ildə azadlığa buraxılması üçün SSRİ Xalq Daxili İşlər Komissarlığına ərizə ilə müraciət edir. O, 1944-cü ilin aprel ayında həbsdən azad olunur. Bir neçə gün Bakıda qalır. Ancaq ona bu şəhərdə yaşamağa icazə verilmir. Bu səbəbdən Şamaxıya köçür. Burada bir neçə ay yaşayır. 17 sentyabr 1944-cü ildə, 45 yaşında Şamaxıda vəfat edir, Şaxəndan qəbiristanlığında dəfn olunur.

**Savalan Fərəcov**

# "Panorama 1453 Tarix Muzeyi"nin azərbaycanlı rəssamı

## Yaşar Zeynalovun arzusu Qarabağ Zəfərini də belə bir muzeydə rəsmlərə köçürməkdir



Türk tarixinin şanlı səhifələrindən biri olan İstanbulun fəthinin (29 may 1453-cü il) 571 ili tamam oldu. 21 yaşlı Sultan Mehmetin komandanlığı altındakı Osmanlı ordusunun Şərqi Roma (Bizans) imperiyasının paytaxtı Konstantinopolu fəth etməsi dünya tarixinə yeni bir imperatorluğu da tanıtdı.

İstanbulda bu tarixi hadisəni ən incə məqamlarınadək özündə əks etdirən "Panorama 1453 Tarix Muzeyi" fəaliyyət göstərir. İstanbul Böyükşəhər Bələdiyyəsi tərəfindən inşa edilən və dünyanın ilk tam panoramik muzeyi adını daşıyan bu məkanın baş rəssamı soydaşımız Yaşar Zeynalovdur.

Azərbaycanın Əməkdar rəssamı Yaşar Zeynalov artıq otuz ildir ki, fəaliyyətini Türkiyədə davam etdirir. O, 1994–2005-ci illərdə qardaş ölkədə bir çox cizgi filminin çəkilişində rəssam olaraq iştirak edib, kitablara illüstrasiya çəkib. 2005-ci ildə İstanbul Böyükşəhər Bələdiyyəsi tərəfindən panorama muzeyinin yaradılması üçün dəvət alır. Gözlənilməz bu dəvət rəssama sənətini daha geniş ictimaiyyətə çatdırmaq üçün böyük imkan yaradır.

On mindən çox insan fiqurunun əks olunduğu muzeyin hazırlanmasında rəssam üçün ən çətin məqam məhz İstanbul fatehinin portretini çəkmək olub. Çünki Sultan Mehmet Fateh deyincə insanların gözündə XV əsrdə yaşamış italyan rəssam Gentile Bellini tərəfindən çəkilən portret canlanır. O əsərin çəkildiyi dövrdə sultanın təxminən 46 yaşında olmasını nəzərə alan Yaşar Zeynalov Panorama muzeyində ona bənzər, lakin daha gənc fatehi canlandırıb.

Mindən çox ayrı-ayrı rəsmin birləşməsindən meydana gələn muzeydə İstanbul uğrunda gedən savaşda Osmanlı ordusu tərəfindən istifadə edilən silahlar, eləcə də bu fəth üçün xüsusi hazırlanan topların bənzər maketləri də sərgilənir. Panorama rəsmləri ümumilikdə 2700 kvadratmetr ərazini əhatə edir.

Hər il təxminən bir milyona yaxın insanın ziyarət etdiyi "Panorama 1453 Tarix Muzeyi"nin açılışından sonra Yaşar Zeynalov ölkənin fərqli bölgələrində buna bənzər digər muzeylərin hazırlanması üçün dəvət alıb. Artıq 17 ildir sənəti ilə qardaş ölkədə tarixi canlandıran rəssam Türkiyənin bir sıra bölgələrində panorama və diorama muzeyləri hazırlayıb.

Qardaş ölkədə bir çox layihəyə imza atan rəssamın indi ən böyük arzusu Azərbaycanda da Qarabağ Zəfərini əks etdirən panorama muzeyi yaratmaqdır.

**Mədəniyyətə könül verənlər**

# Həkim olmaq istəyirdi, taleyini səhnəyə bağladı...



Teatrı sevəsən, səhnədə çıxış edəsən, çətin ki sonradan onun cazibəsindən rahatlıqla ayrıla biləsən. Səhnədə hər hansı obrazı canlandırmaq tamaşaçı alqışı ilə bitmir. Onun sehri, zövqü qədər məsuliyyəti də var... "Mədəniyyətə könül verənlər" rubrikasının budəfəki qəhrəmanı səhnəyə qəlbən bağlanıb ömrünü sənətə həsr edənlərdəndir...

Aktrisa Güldərən Azayeva 1953-cü il mayın 9-da Sabirabad rayonunun Çölbeşdəli kəndində anadan olub. Bakı Mədəni-Maarif Texnikumunu bitirib. 1970–1976-cı illərdə Çölbeşdəli kənd Mədəniyyət evinin direktoru vəzifəsində işləyib. Daha sonra Sabirabad rayon Mədəniyyət evinə dəvət alıb, burada dram dərnəyinin rəhbəri, metodist vəzifələrində çalışıb. 50 ildən çoxdur Sabirabad rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Adil İsgəndərov adına Xalq teatrında aktrisa kimi çalışır.

Güldərən xanım bu sənətə təsadüfən gəldiyini bildirir: "Arzum həkim olmaq idi. Düzdür, hələ məktəb illərində teatr tamaşalarında oynayırdım. İlk rolum Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasında Zeynəb obrazı olub. Məktəbi bitirdikdən sonra sənədlərimi Tibb İnstitutuna verdim, ancaq qəbul ola bilmədim. Sonra taleyimi mədəniyyət sahəsinə bağladım. Çölbeşdəli kənd Mədəniyyət evinin direktoru oldum. Burada da tamaşalarda çıxış etməyə başladım. Bir gün məni Adil İsgəndərov adına Sabirabad Xalq teatrına işləməyə dəvət etdilər".



Müsahibim bu günədək teatrda Azərbaycan və dünya ədiblərinin əsərləri əsasında hazırlanan yüzlərlə tamaşada rol alıb. Səməd Vurğunun "Vaqif"ində Xuraman, Qeybulla Rəsulovun "Əlvida Hindistan"ında Şəzərət, Əbil Yusifovun "Odlar içində" əsərində Azadə, Rafael Hüseynovun "1109 nömrəli məhbus" əsərində Dilbər, Əhməd Cavadın həyat və yaradıcılığından bəhs edən tamaşada Şuriyyə xanım, S.S.Axundovun "Tamahkar" əsərində Nabat, Altay Məmmədovun "Bekarçılıq kontoru"nda Arəstə, "Həmyerlilər"ində Zeynəb, Bəxtiyar Vahabzadənin "Qızıl alma" əsərində Aysel, Orxan Kamalın "Yad qızı"nda Nazan, digər yaddaqalan obrazları canlandırıb: "Son vaxtlarda "Bu məmləkət sənsiz deyil, səninlədir", "Qarabağ Azərbaycandır!",



"Kəlbəcərə yağış yağır", "İlahi dərd", "Xocalı harayı", "20 Yanvar" və s. tamaşalarda baş rollarda yer almışam. "Bu məmləkət sənsiz deyil, səninlədir" əsəri Ulu öndər Heydər Əliyevin həyatından bəhs edir. Hazırda bu əsəri yenidən hazırlayırıq".

Aktrisa teatrın kollektivi ilə birlikdə ölkə daxilində bir sıra qastrol səfərlərində də iştirak edib: "Çalışdığım A.İsgəndərov adına Xalq teatrı Mədəniyyət Nazirliyinin müxtəlif layihələri çərçivəsində öz tamaşaları ilə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı və Azərbaycan Dövlət Kukla Teatrının səhnələrində çıxış edib.

Teatrımızın Azərbaycanın müxtəlif rayonlarına qastrol səfəri də reallaşıb. Kollektivimiz 1992–1993-cü illərdə Birinci Qarabağ müharibəsi zamanı cəbhə bölgəsində tez-tez olub, Vətən uğrunda döyüşən əsgər və zabitlərimiz qarşısında dəfələrlə çıxış edib".

Bir aktrisa kimi ona verilən rolların öhdəsindən məharətlə gəldiyini deyən müsahibim Səməd Vurğunun "Vaqif" dramındakı Xuramanı qəlbinə ən yaxın obraz kimi dəyərləndirir.

Güldərən Azayeva fəaliyyəti dövründə Mədəniyyət Nazirliyi, Sabirabad Rayon İcra Hakimiyyəti, Mil-Muğan Regional Mədəniyyət İdarəsi və digər qurumların fəxri fərman və diplomları ilə təltif edilib.

**Nurəddin**

# "Xurşidbanu Natəvan"ın növbəti tamaşası müəllifin 110 illiyinə həsr edilib

**Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı qələmə aldığı ilk səhnə əsərlərindən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı ilə sıx bağlı olub. Teatrın son altmış ildən artıq tarixində İlyas Əfəndiyev dramaturgiyasının müstəsna yeri var.**

Mayın 26-da Akademik Milli Dram Teatrının səhnəsində İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesi əsasında səhnələşdirilən eyniadlı əsəri nümayiş olunub. Tamaşanın budəfəki nümayişi müəllifin 110 illiyinə həsr edilib.

Nümayişdən əvvəl çıxış edən Əməkdar incəsənət xadimi, professor Məryəm Əlizadə görkəmli ədibin həyatı və zəngin yaradıcılığı, ədəbiyyatımıza verdiyi töhfələrdən danışıb. O, İlyas Əfəndiyevin ötən əsrin 60-cı illərindən etibarən Azərbaycan dramaturgiyasında, teatrında yeni bir mərhələnin başlanğıcını qoyduğunu bildirib.

Qeyd edilib ki, görkəmli ədibin 20 pyesindən 19-u Milli Dram Teatrında tamaşaya qoyulub, həmin dövrdə mövcud olmuş mənəvi problemlər onun dramaturgiyasında öz əksini tapıb.

Xalq artistləri Mərahim Fərzəlibəyov, Bəsti Cəfərova və Firəngiz Mütəllimova İlyas Əfəndiyevlə bağlı xatirələrini bölüşüblər. Bildirilib ki, İlyas Əfəndiyev öz əsərlərində hər zaman tamaşaçıya milli kimliyi aşılayırdı. Onun əsərləri hələ neçə-neçə nəsillər üçün işıq olacaq.

Sonra "Xurşidbanu Natəvan" tamaşası nümayiş olunub.




Səhnə əsərinin bədii rəhbəri və quruluşçu rejissoru mərhum Xalq artisti Azər Paşa Nemətov, rejissoru Mehman Fətullayev, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimi və işıq rəssamı Rafael Həsənovdur. Tamaşada Xalq artistləri Məleykə Əsədova, Rafiq Əzimov, Hacı İsmayılov, Kazım Abdullayev, Əməkdar artistlər Anar Heybətov, Elşən Cəbrayılov, Rəşad Bəxtiyarov, Mirzə Ağabəyli, Kazım Həsənquliyev, Elnar Qarayev, Əlvida Cəfərov, Ayşad Məmmədov, Elşən Rüstəmov və digər aktyorlar iştirak ediblər.

# Üzeyir Hacıbəyli ənənələri ilə davam edən yol

## Azərbaycan Bəstəkarlar İttifaqı – 90



**1934-cü ildən fəaliyyətə başlayan Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) zəngin bir yol keçib. Təbii ki, bu tarix əlamətdar hadisələrlə zəngindir. Bu tarixin təməlində isə dahi Üzeyir Hacıbəylinin xidmətləri dayanır. O xidmətlər ki, onlar həm Azərbaycan bəstəkarlıq məktəbinin, həm də Azərbaycan Bəstəkarlar İttifaqının inkişaf mənbəyidir. Düzdür, Üzeyir Hacıbəyli Bəstəkarlar İttifaqına 1937-ci ildən rəhbərlik edib. Ona qədər isə sovet ideologiyasının sərt qanunları içərisində Üzeyir bəyə qərəzli mövqe bəsləyənlər, guya ittifaqın işini irəli aparmaq üçün rəhbərliyə öz nümayəndələrini təyin ediblər. Bu yerdə həmin tarixə qısa nəzər salaq.**

XX əsrin 30-cu illərində yaradıcılıq təşkilatlarının meydana gəlməsi, təbii ki, sovet ideologiyasına xidmət edirdi. Musiqi incəsənətini də bu istiqamətə yönəltmək əsas meyar idi. 1932-ci ildə SSRİ Bəstəkarlar İttifaqı yaradılmışdı. Müttəfiq respublikalarda bu proses gedirdi.

1932-ci ildə əvvəlcə Azərbaycan Bəstəkarlar İttifaqının təşkilat bürosu yaradıldı. Sergey Paniyevin rəhbərliyi ilə fəaliyyətə başlayan təşkilata bəzi səlahiyyətlər verildi. Bəstəkarlara qonorarların verilməsi, iclas və yığıncaqların keçirilməsi və bu kimi məsələlər buraya aid idi.

1934-cü il iyunun 30-da 17 nəfərin iştirakı ilə ümumi yığıncaq keçirilir. İlk iclasın protokollarında Əfrasiyab Bədəlbəyli, Zülfüqar Hacıbəyov və Niyazinin adları qeyd olunub. Təsis yığıncağında ABİ-nin rəhbərliyinə 31 yaşlı bəstəkar, mənşəcə Krım tatarı olan Asən (Asan) Refatov gətirilir. O bu vəzifəni 1935-ci il iyunun 19-dək qədər icra edir.

Göründüyü kimi, hələ ittifaqın işində və yığıncaqların ilk protokollarında Üzeyir bəyin adı heç çəkilmir. Amma Üzeyir bəy öz böyük istedadı, işgüzar fəaliyyəti ilə bütün təqibləri dəf edərək, ona qarşı qərəzli mülahizələrdən qalib çıxaraq, yaşadığı hər hansı quruluşdan asılı olmayaraq, xalqına ləyaqətlə xidmət edib. 1934-cü il dekabrın 12-də çağırılmış yığıncaqda müzakirə olunan başlıca məsələ o dövrün mətbuat səhifələrində musiqi haqqında qeyri-peşəkar yazılarla bağlı olub. Bu məqsədlə də ABİ-də Tənqid və musiqişünaslıq bölməsi yaradılıb və Üzeyir bəy bölməyə sədr təyin edilib.

1935-ci ildə, yenə də mövcud ideoloji məqamlar əsas tutularaq, ittifaqın rəhbərliyinə musiqi təhsili olmayan Əli Kərimov gətirilir. Üzeyir bəy isə "Tənqid və musiqişünaslıq" bölməsinin rəhbəri kimi burada mühüm işlər görür. Nəhayət, 1937-ci ildə o, Bəstəkarlar İttifaqının sədri seçilir.

Tarixə nəzər salan hər kəs 1937-ci ilin necə ağır bir dövr olduğunu bilir. Repressiya dalğasının tüğyan etdiyi bu mürəkkəb bir şəraitdə qabaqcıl bir yaradıcılıq



təşkilatının rəhbəri olmaq və bu "qara il" çərçivəsində işıqlı xidmətlər göstərmək Üzeyir bəyin böyüklüyünün ifadəsi idi. Bəstəkarın şah əsəri olan "Koroğlu" operası buna





gözəl nümunədir. 1937-ci il aprelin 30-da tamaşaya qoyulan bu əsərə görə Üzeyir Hacıbəyli Azərbaycan SSR Xalq artisti adına layiq görüldü. Həmin ildə o, həm də SSRİ Ali Sovetinin deputatı seçilir. 1938-ci ildə isə SSRİ "Xalq artisti" fəxri adına layiq görülür.

Böyük sənətkarın şəxsiyyəti və nüfuzu, xalqın sevgisi dövlətin də diqqəti ilə qarşılanır. Ona daha mühüm bir vəzifə – Azərbaycan Dövlət Konservatoriyasının rektorluğu həvalə olunur. Ömrünün sonuna qədər Üzeyir bəy üzərinə düşən bu və ya digər vəzifələri layiqincə icra etməklə, mədəniyyət tariximizə silinməz səhifələr yazdı.

1948-ci il noyabrın 23-də Üzeyir bəyin vəfatından sonra isə bu vəzifələrin davamı onun yetirmələrinin fəaliyyəti və yaradıcılığı ilə zənginləşdi. Bu mənada, möhkəm ənənələrə əsaslanan ABİ-nin işində də mühüm xidmətləri olan Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Səid Rüstəmov, Rauf Hacıyev, Niyazi, Fikrət Əmirov, Tofiq Quliyev, Cahangir Cahangirov, Ramiz Mustafayev, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Vasif Adıgözəlov və bu kimi görkəmli bəstəkarlarımızın yaradıcılığı böyük bir məktəbdir. Çünki onlar Üzeyir bəy irsini əsas tutaraq dünya musiqisinin də tələblərinə cavab verən dəyərli əsərlər yazıblar. Onların yaradıcılığı Bəstəkarlar İttifaqının da inkişafına təkan verdi.

Görkəmli bəstəkarlarla yanaşı, ABİ-nin tarixində musiqişünasların da rolunu qeyd etmək gərəkdir. İttifaq yarandığı vaxtdan onun işinə musiqişünaslar da cəlb edilib. 1934-cü ildən Üzeyir bəyin rəhbərlik etdiyi Tənqid və musiqişünaslıq bölməsinin işi buna nümunədir. O dövrdə əsası qoyulan bu ənənə indi də davam etdirilir. Musiqişünaslar ABİ-nin plenum və qurultaylarında, elmi konfranslarda bəstəkarların yaradıcılığı, milli və professional musiqinin janrları, musiqi həyatına dair, eləcə də musiqişünaslıq və onun aktual problemləri mövzusunda geniş məruzələrlə çıxışlar edib, dövri mətbuatda da bu məsələləri geniş işıqlandırıblar. Ötən əsrin ilk musiqişünaslarından Xurşid Ağayeva, Məmmədsaleh İsmayılov, Elmira Abasova, onların davamçıları Ramiz Zöhrabov, Səadət Seyidova, Səadət Abdullayeva, Gülnaz Abdullazadə, İmruz Əfəndiyeva, eləcə də növbəti nəsil musiqişünasların fəaliyyəti ittifaqın işinə mühüm töhfədir.

Bəstəkarlar İttifaqı Qara Qarayev, Səid Rüstəmov, Tofiq Quliyev kimi görkəmli sənətkarların sədr olduğu dövrlərdə və bu gün də Üzeyir bəyin ənənələrini davam və inkişaf etdirir. Bu mənada, 1974-cü ildən ABİ-nin katibi, 2007-ci ildən isə sədri vəzifəsinə seçilən Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə öz sələflərinin yolunu və ənənələrini qoruyub saxlamağa, təşkilatın yeni dövrdə inkişafını təmin etməyə səy göstərir. İttifaqın fəaliyyətinin əsas hədəfləri ənənələr üzərində qurulan müasir yaradıcılıq ideyalarının təmin olunmasıdır.

Eyni zamanda ABİ dövlət tədbirlərinin, festivalların keçirilməsində də yaxından iştirak edir. Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən "Muğam aləmi", Üzeyir Hacıbəyli Beynəlxalq festivalları və digər tədbirlər buna misaldır. Şəki "İpək yolu" Beynəlxalq Festivalı isə Bəstəkarlar İttifaqının layihəsi olaraq (festivalın bədii rəhbəri Xalq artisti Firəngiz Əlizadədir), Mədəniyyət Nazirliyi və Şəki Şəhər İcra Hakimiyyəti ilə birgə həyata keçirilir.

Bəstəkarlar İttifaqının fəaliyyəti daim dövlətimizin qayğı və himayəsi ilə əhatə olunub. Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi sovet və müstəqillik dövrlərində bu təşkilatı xüsusi diqqətdə saxlayıb. 1979-cu ildə ABİ-nin V qurultayında onun bəstəkar və musiqişünaslarla görüşündə söylədiyi fikirlər, "Bəstəkarın yüksək amalı və vəzifələri" adlı məruzəsi bu gün öz aktuallığını qoruyub saxlamaqdadır.

Ulu öndərimizin bu sahədə siyasəti Prezident İlham Əliyev tərəfindən davam etdirilir. 2009-cu ildə Bəstəkarlar İttifaqına qaytarılan binanın əsaslı təmiri və yeni avadanlıqlarla təchiz olunması, təmirdən sonra ölkə Prezidentinin və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etmələri bunun bariz təzahürüdür. Dövlət başçımızın sərəncamları ilə ittifaqın üzvlərinə fəxri adlar və Prezident təqaüdlərin verilməsi də bu qayğı və diqqətin bariz nümunəsidir.

Məhz belə bir qayğı və diqqətlə əhatə olunan təşkilatın üzvləri də xalqımızın musiqi mədəniyyətinə dəyərli töhfələr verərək yeni əsərlər ərsəyə gətirirlər. 44 günlük Vətən müharibəsindəki Zəfərimizə həsr olunan bəstəkar əsərləri və onların konsert məkanlarında səslənməsi buna əyani misaldır.

Bəstəkarlar İttifaqında ərsəyə gələn "İlham Əliyev və musiqi mədəniyyəti" (2021) və "Heydər Əliyev və musiqi mədəniyyəti" (2023) kitabları da həm Ulu öndərin, həm də Prezident İlham Əliyevin musiqi sənətinə göstərdikləri münasibətin tarixi faktlarla təzahürüdür.

Hazırda 90 illiyi ilə əlaqədar tədbirlər planı üzrə işlər aparılır. ABİ-nin son 5 il ərzində fəaliyyətinə dair yeni nəşrlər, üzvlərin yaradıcılıq işlərini əks etdirən məlumat kitabı, may ayında gənc bəstəkarların plenumunun keçirilməsi, iyun ayında F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında keçiriləcək tədbirlər, iyul ayında Şəkidə nəzərdə tutulan XIII "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı, sentyabr ayında gözlənilən ənənəvi Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalına hazırlıq, oktyabr və noyabr aylarında keçiriləcək tədbirlərin proqramları bu fəaliyyətin əsas göstəriciləridir.

**Səadət Təhmirazqızı**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## Xatirə təqvimi — 28 may – 2 iyun

### Azərbaycan

**28 may 1927** – Xalq artisti, kamança ifaçısı Habil Mustafa oğlu Əliyev (1927 – 8.9.2015) Ağdaş rayonunun Üçqovaq kəndində doğulub. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. "Qanun naminə", "Dəli Kür" və s. filmlərdə musiqilər ifa edib.

**28 may 1936** – Əməkdar artist Aqşin Məmmədəli oğlu Vəlixanov (1936 – 21.7.1998) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Kinoda, televiziya tamaşalarında çəkilib.

**28 may 2021** – Əməkdar artist, müğənni Zöhrə Abdulla qızı Abdullayeva (16.12.1952 – 2021) vəfat edib.

**29 may 1939** – Əməkdar mədəniyyət işçisi, kinooperator Həmzə Əhmədoğlu (1939–2008) Bakıda doğulub. "Azərbaycanfilm"də 40-dan çox filmin çəkilişində iştirak edib.

**29 may 1946** – Əməkdar incəsənət xadimi, aktyor, rəssam Elçin Mehdi oğlu Məmmədov (1946 – 18.2.2001) anadan olub. "Yeddi oğul istərəm", "Dədə Qorqud", "Dantenin yubileyi" və s. filmlərdə çəkilib. Ölkəmizdə, eləcə də Rusiya teatrlarında tamaşalara səhnə tərtibatı verib.

**29 may 2023** – Əməkdar artist Elxan Məmməd oğlu Qasımov (24.4.1945 – 2023) vəfat edib. "Əhməd haradadır?", "Axırıncı aşırım" və s. filmlərdə çəkilib. "Köhnə bərə", "Biz qayıdacağıq" filmlərinə quruluş verib.

**30 may 1862** – Böyük satirik şair, maarifçi və mütəfəkkir Mirzə Ələkbər Sabir (1862 – 12.7.1911) Şamaxıda doğulub. "Molla Nəsrəddin" jurnalında fəaliyyəti şairin yaradıcılığının ən yetkin, məhsuldar dövrüdür. Ölümündən sonra (1912) şeirləri "Hophopnamə" adlı topluda nəşr olunub.

**30 may 1930** – Şair, publisist, Əməkdar mədəniyyət işçisi Fikrət Abbas oğlu Sadıq (1930 – 16.11.2016) Şamaxı şəhərində anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir. Kitabları: "İşığın yaşı", "Ağ cığır", "Gözlədiyim ömür" və s.

**30 may 1948** – Xalq rəssamı Tahir Rəşid oğlu Tahirov (1948 – 12.9.2019) Bakıda anadan olub. Akademik Opera və Balet Teatrında quruluşçu rəssam işləyib, filmlərdə ("Cavad xan", "Sübhün səfiri" və s.) geyim rəssamı olub.

**30 may 1967** – Tanınmış aktyor, rejissor, Əməkdar incəsənət xadimi İsmayıl Mahmud oğlu Əfəndiyev (10.8.1910 – 1967) vəfat edib.

**31 may 1922** – Xalq artisti, məşhur xanəndə Sara Bəbiş qızı Qədimova (1922 – 12.5.2005) Bakıda anadan olub. Azərbaycan Dövlət Filarmoniyasının, Opera və Balet Teatrının solisti olub, Azərbaycan musiqisinin xaricdə təbliğinə böyük töhfə verib.

**31 may 1929** – Bəstəkar, Xalq artisti Oqtay Qədir oğlu Zülfüqarov (1929 – 31.8.2016) anadan olub. Uşaqlar üçün "Əlibaba və qırx quldur" baleti, "Azərbaycan gəncləri" odası, digər musiqi əsərlərinin, 300-dən çox mahnının müəllifidir. Tamaşalara musiqi yazıb.

**31 may 1963** – Əməkdar artist, tanınmış xanəndə Zülfi (Zülfüqar) Səməd oğlu Adıgözəlov (1898–1963) vəfat edib.

**31 may 2018** – Prezident İlham Əliyev Xalq yazıçısı İsa Muğannanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**1 iyun 1920** – Xalq artisti Raxil Solomonovna Ginzburq (1920 – 6.12.1995) Bakıda doğulub. Dövlət Rus Dram Teatrının aktrisası (1943-cü ildən) olub.

**1 iyun 1936** – Xalq artisti, dirijor Nəriman Abbasqulu oğlu Əzimov (1936 – 19.11.2016) Gəncədə doğulub. Azərbaycan Televiziyası və Radiosunun Səid Rüstəmov adına Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru olub.

**1 iyun 1940** – Əməkdar rəssam Ənvər Əsgər oğlu Əsgərov (1940–2014) Qəbələ rayonunda anadan olub. Abşeronun koloriti, sənaye mənzərələri ilə bağlı tabloların, natürmortların müəllifidir.

**1 iyun 1943** – Əməkdar mədəniyyət işçisi Arif İzzət oğlu Həbibi (1943 – 21.1.2021) anadan olub. "Azərbaycanfilm" Kinostudiyasında rejissor assistenti, dublyaj rejissoru, Dublyaj şöbəsinin müdiri işləyib.

**1 iyun 1944** – Əməkdar artist Mübariz Əlixan oğlu Paşayev (1944 – 31.8.2006) Zəngilan rayonunda doğulub. İrəvan, Gənc Tamaşaçılar teatrlarının aktyoru olub, filmlərdə ("Qərib cinlər diyarında", "Dantenin yubileyi" və s.) çəkilib.

**1 iyun 1950** – Əməkdar artist Tanilə Aysayevna Əhmərova (1950 – 4.8.2015) Bakıda anadan olub. Filmlərdə yaddaqalan obrazlar yaradıb: "Sevinc buxtası" (Leyla), "Qayınana" (Sevda) və s.

**1 iyun 1953** – Əməkdar artist Ömür Məlik oğlu Nağıyev (1953 – 31.12.2013) anadan olub. 30-dan çox filmdə çəkilib. Bakı Bələdiyyə Teatrında, Rus Dram Teatrında çalışıb.

**1 iyun 1972** – Bakıda Azərbaycan yazıçılarının V qurultayı işə başlayıb. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev qurultayda çıxış edib.

**1 iyun 2010** – Prezident İlham Əliyev böyük şair Mirzə Ələkbər Sabirin 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**1 iyun 2015** – Prezident İlham Əliyev görkəmli memar Mikayıl Hüseynovun 110 illik yubileyi haqqında sərəncam imzalayıb.

**2 iyun 1979** – Əməkdar incəsənət xadimi, kinorejissor Hüseyn Əli oğlu Seyidzadə (15.10.1910 – 1979) vəfat edib. "O olmasın, bu olsun", "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərə quruluş verib.

**2 iyun 2013** – Milli təsviri sənətimizin görkəmli nümayəndəsi, Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatları laureatı Toğrul Fərman oğlu Nərimanbəyov (7.8.1930 – 2013) Parisdə vəfat edib. Passi qəbiristanlığında dəfn olunub.

### Dünya

**28 may 1779** – İngilis şairi, mütəfəkkir Tomas Mur (Thomas Moore; 1779–1852) anadan olub.

**28 may 1934** – Gürcüstanın Xalq artisti Liya Eliava (1934–1998) anadan olub. Azərbaycanda "Dəli Kür" (Şahnigar), "Tütək səsi" (Sayalı) filmlərinə çəkilib.

**29 may 1874** – İngilis yazıçısı, filosof, jurnalist Gilbert Çesterton (Gilbert Keith Chesterton; 1874–1936) anadan olub. Əsərləri: "Əbədi insan", "Şar və xaç", "Uçan meyxana" və s.

**29 may 1953** – Rusiyanın Xalq artisti Aleksandr Abdulov (1953 – 3.1.2008) anadan olub. Çəkildiyi filmlər: "Sevdiklərinizdən ayrılmayın", "Ən məftunedici və cazibədar", "Məhbəs romansı" və s.

**30 may 1778** – Fransız yazıçısı, şair, mütəfəkkir və tarixçi Volter (əsl adı Fransua-Mari Arue; 21.11.1694 – 1778) vəfat edib.

**30 may 1937** – Rusiyanın Xalq artisti Aleksandr Demyanenko (1937–1999) anadan olub. Filmləri: "Qafqaz əsiri", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.

**31 may 1809** – Avstriya bəstəkarı Frans Yozef Haydn (Franz Joseph Haydn; 31.3.1732 – 1809) vəfat edib. Simfoniyaların, opera, sonata, oratoriya və s. əsərlərin müəllifidir.

**31 may 1887** – Fransız şairi, Nobel mükafatı laureatı (1960) Sen-Jon Pers (Saint-John Perse; 1887–1975) anadan olub.

**1 iyun 1804** – Rus bəstəkarı Mixail İvanoviç Qlinka (1804–1857) anadan olub. "İvan Susanin", "Ruslan və Lyudmila" operalarının müəllifidir.

**1 iyun 1850** – Türk yazıçısı Şəmsəddin Sami (1850–1904) anadan olub. İlk türk romanı sayılan "Taaşşuk-ı Talat və Fitnat" əsərinin müəllifi, türk dili lüğətinin tərtibçisidir.

**1 iyun 1926** – Amerika aktrisası, müğənni Merilin Monro (Marilyn Monroe – əsl adı Norma Jean Mortenson; 1926–1962) anadan olub.

**1 iyun 1929** – Hind aktrisası Nərgiz (əsl adı Fatimə Rəşid; 1929–1981) anadan olub. "Avara", "Cənab 420" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**2 iyun 1840** – İngilis yazıçısı, şair Tomas Hardi (Thomas Hardy; 1840–1928) anadan olub.

**2 iyun 1988** – Hind aktyoru və rejissoru Rac Kapur (Raj Kapoor; 14.12.1924 – 1988) vəfat edib. Filmləri: "Avara", "Cənab 420" (aktyor), "Sanqam", "Bobbi", "Abdulla" (rejissor) və s.

**Hazırladı: V.Orxan**

№40 (2105)
31 may 2024
www.medeniyyet.az

# Avstriyada və Fransada Azərbaycan caz musiqisi səslənib





28 May – Müstəqillik Günü münasibətilə müxtəlif ölkələrdə keçirilən tədbirlərdə Azərbaycan mədəniyyəti və incəsənətinin zənginliyi nümayiş olunub. Özünəməxsus çalarları ilə seçilən Azərbaycan caz musiqisi Avstriyada və Fransada təqdim edilib.

Avstriyanın Baden şəhərində keçirilən konsertdə Xalq artisti Cəmil Əmirovun rəhbərlik etdiyi "Savab" caz qrupu çıxış edib. Musiqi pavilyonunda açıq səma altında konsert proqramı Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) və Baden Şəhər Bələdiyyəsinin əməkdaşlığı əsasında təşkil olunub.

Bələdiyyənin Mədəniyyət idarəsinin rəhbəri professor Hans-Qerd Ramaxer artıq ənənə halını alan əməkdaşlığa görə AMM-in rəhbəri Leyla Qasımovaya minnətdarlığını bildirib. Qeyd edib ki, Azərbaycan musiqiçilərinin təqdim etdiyi konsert proqramları yerli sənətsevərlər tərəfindən yüksək qiymətləndirilir.

Cəmil Əmirovun "Savab" caz qrupu Azərbaycan bəstəkarlarının əsərləri əsasında hazırlanmış etnocaz proqramını təqdim edib. Xalq artisti Mircavad Cəfərov (ud), Əməkdar artistlər Tofiq Cabbarov (perkussiya) və Ruslan Hüseynov (bas), eləcə də Elvin Beşirov (zərb) və Coşqun Sadıqovun (balaban, tütək) ifaları alqışlarla qarşılanıb.

***

Parisdə, Fransanın "Louis Vitton" Fondunda isə azərbaycanlı caz pianoçusu, Əməkdar artist Şahin Növrəslinin solo konserti olub.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva, "Louis Vitton" Fondunun üzvləri, incəsənət nümayəndələri, diaspor üzvləri dinləyicilər arasında olublar.

Konsertdə Şahin Növrəsli klassik caz mövzularında improvizələri və Azərbaycan melodiyalarının da rəng qatdığı öz kompozisiyalarını ifa edib.

Şahin Növrəsli Londonda "Royal Festival Hall", Montrö Caz Festivalı, Praqada Beynəlxalq Piano Festivalı kimi bir çox musiqi layihələrində çıxış edib.

# Budapeştdə Xalq rəssamı Arif Hüseynovun sərgisi

Budapeşt şəhərindəki Yunus Əmrə İnstitutunda Azərbaycanın UNESCO üzrə Milli Komissiyasının dəstəyi, Macarıstandakı səfirliyimizin və Azərbaycan-Macarısan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Xalq rəssamı Arif Hüseynovun fərdi sərgisi keçirilir.



Mayın 27-dən 31-dək davam edən sərgidə rəssamın "Qarabağnamə" silsiləsindən qrafik əsərləri nümayiş olunur.

Sərginin açılışında Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlıqdan bəhs edib.

Arif Hüseynov sərgi barədə məlumat verib. Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev isə rəssamın yaradıcılığından söz açıb.

Macarıstanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin, bu ölkədəki Azərbaycan diasporu təmsilçilərinin iştirak etdiyi tədbirdə Arif Hüseynovun əsərləri əsasında lentə alınmış "Qarabağnamə" adlı sənədli film də nümayiş etdirilib.

# Venesiya Biennalesində Azərbaycan pavilyonu maraqla ziyarət olunur

*əvvəli səh. 1-də*



Bu il aprelin 20-də açılan 60-cı Venesiya Biennalesi "Əcnəbilər hər yerdədir" şüarı ilə keçirilir. Biennalenin kuratoru Adriano Pedrosun bildirdiyinə görə, bu mövzu təsadüfən seçilməyib. Bu gün insanların müxtəlif ölkələrə köçməsi ilə fərqliliklər və çətinliklərlə müşayiət olunur. "Əcnəbilər hər yerdədir" ifadəsi iki məna daşıyır. Birincisi, hara getməyimizdən asılı olmayaraq hər yerdə əcnəbilərlə rastlaşırıq. İkincisi, istənilən yad bir yerə getsək, orada əcnəbiyik.

Venesiya Biennalesində "Xəzərdən çəhrayı planetə. Mən buradayam" adlı Azərbaycan pavilyonuna da ziyarətçilər böyük maraq göstərirlər. Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və ölkəmizin İtaliyadakı səfirliyinin dəstəyi ilə qurulan pavilyonun kuratoru müasir incəsənət sahəsi üzrə tənqidçi, professor Luka Beatrisdir.

Azərbaycan pavilyonunda Əməkdar rəssamlar İrina Eldarova, Rəşad Ələkbərov, rəssam Vüsalə Ağaraziyevanın əsərlərinin zəngin palitrası vasitəsilə səfərlər, səyahətlər və mühacirətin incəsənətə təsiri göstərilir.

Qeyd edək ki, 88 ölkənin milli pavilyonunun qurulduğu biennale noyabrın 24-dək davam edəcək.

# 77-ci Kann kinofestivalının mükafatçıları

Xəbər verdiyimiz kimi, Avropanın üç böyük kino müsabiqəsindən biri olan Kann Film Festivalı bu il 14–25 may tarixlərində keçirilib.



77-ci festivalın baş mükafatına – "Qızıl palma budağı"na amerikalı rejissor Şon Beykerin "Anora" filmi layiq görülüb. Rusiyalı aktyorların da çəkildiyi film rus oliqarxın oğlunun amerikalı striptizçi qızla evlənməsi və həmin oliqarxın bu evliliyə son qoymağa çalışmasından bəhs edir.

Festivalın ikinci mükafatı sayılan Qran-pri ("Gümüş palma budağı") hindistanlı xanım rejissor Payal Kapadianın "Hər şeyi işıq kimi təsəvvür edirik" filminə verilib.

"Münsiflər heyətinin mükafatı"nı isə fransalı rejissor Jak Odiarın "Emiliya Peres" musiqili-kriminal dramı qazanıb. Bu filmdə çəkilən Selena Qomes, Zoe Saldana, Adriana Pas və Karla Qaskon isə "Ən yaxşı aktrisa" nominasiyasında mükafatı bölüşüblər.

"Ən yaxşı aktyor" nominasiyasında Cessi Plemons ("Xeyirxahlıq" filmi, rejissor Yorgos Lanthimos) qalib olub.

Portuqaliyalı Migel Qomes "Böyük səyahət" filminə görə "Ən yaxşı rejissor", fransalı Korali Farja "Maddə" filminə görə "Ən yaxşı ssenari" mükafatını qazanıb.

Builki festivalın fəxri "Qızıl palma budağı"na isə dünya kinosunun iki məşhur siması – amerikalı rejissorlar Frensis Ford Koppola və Corc Lukas layiq görülüblər.

# Güclü Türkiyə üçün yeni konstitusiya lazımdır

"Yassı ada" məhkəmələrində müxtəlif təzyiqlərə, insanlıqdan utandıran təhqirlərə, işgəncələrə məruz qalan üç dövlət xadimimizin hər birinin adı millətimizin qəlbinə şəhid, milli qəhrəman kimi yazılıb. Bu xalq mərhum Adnan Menderes və dostlarını minnətdarlıq, edamına mane ola bilmədiklərinə görə bir az da xəcalət hissi ilə xatırlayacaq. Aradan 64 il deyil, əsrlər keçsə belə, bu çevrilişi edənləri unutmayacağıq, bağışlamayacağıq.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu sözləri mayın 27-də Türkiyənin "Demokratiya və azadlıqlar adası" adı verilən "Yassı ada"da çıxışı zamanı deyib.

"Türkiyə əsri konstitusiyası, mülki konstitusiya, güclü Türkiyə" mövzusunda simpozium 1960-cı il mayın 27-də baş verən və baş nazir Adnan Menderes, xarici işlər naziri Fatih Rüştü Zorlu və maliyyə naziri Hasan Polatkan ilə birlikdə 15 nəfərin edam edilməsi ilə nəticələnən dövlət çevrilişinin ildönümünə həsr olunub.

Həmin çevrilişin addım-addım həyata keçirilən təxribatın nəticəsi olduğunu vurğulayan Ərdoğan edam edilən bu şəxslərin rəhbərliyi altında on il idarə edilən Türkiyə dövlətinin o vaxtlar mühüm işlərə imza atdığını, bu hadisədən sonra isə Türkiyə siyasətinin uzun illər qarışıqlıq, qeyri-sabitlik və özünə inamsızlıq burulğanından xilas ola bilmədiyini deyib.

Çevrilişlər kimi ölkəni qarışdıracaq hadisələrin dövrünün artıq başa çatdığını vurğulayan Türkiyə Prezidenti yeni konstitusiya ilə bu günədək əldə edilən bütün uğurları daha da irəliyə aparacaqlarını deyib.

Qeyd edək ki, Türkiyədə hazırda qüvvədə olan konstitusiya 1980-ci il dövlət çevrilişindən sonra qəbul olunub.

# Türkiyənin Mədəniyyət Yolu Festivalı Şanlıurfada davam edir



Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə bu il dördüncüsü keçirilən Mədəniyyət Yolu Festivalı davam edir. Festivalın ilk mərhələsi ötən ay Adanada (13–21 aprel) gerçəkləşib. 25 may – 2 iyun tarixlərində isə Mədəniyyət Yolunun marşrutu Şanlıurfadan keçir.



Türkiyənin qədim tarixi irsi, mədəni zənginlikləri, özünəməxsus mətbəxi ilə tanınan bu bölgəsi 2018-ci ildə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş Göbəklitəpə arxeoloji abidəsi ilə də məşhurlaşıb.

Festivalın ilk günü Şanlıurfa Arxeologiya Muzeyi ərazisində təşkil edilən proqramlarla başlayıb.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy açılış mərasimindəki çıxışında Şanlıurfanın dünyanın ən böyük və ən əhatəli festivalına ev sahibliyi etdiyini vurğulayaraq, bunun bölgənin tanıtımı və turizmi baxımından faydalı olacağına inandığını bildirib.

Şanlıurfa Böyükşəhər Bələdiyyə başqanı Mehmet Kasım Gülpınar da festivalın turizm sahəsində öncül yerləri hədəfləyən bölgə üçün böyük bir fürsət olduğunu deyib: "Bu müddətdə Şanlıurfanı daha çox və daha intensiv şəkildə tanıtmağa çalışacağıq. Xüsusilə beynəlxalq səviyyədə tanıtımlara böyük əhəmiyyət veririk".

Çıxışlardan sonra nazir Mehmet Nuri Ersoy, Şanlıurfa valisi Həsən Şıldak, bələdiyyə başqanı Mehmet Kasım Gülpınar və digər rəsmilər Arxeologiya Muzeyi qarşısında qurulan konsert sahəsi ilə tanış olublar.

Qeyd edək ki, Şanlıurfada 9 günlük Mədəniyyət Yolu Festivalının proqramına 40 fərqli məkanda keçirilən ümumilikdə 300-dək tədbir – konsertlər, səhnə şouları, sərgilər, təqdimatlar və s. daxildir.

Festival çərçivəsində tanınmış sənət adamları da yerli sakinlər və turistlərlə görüşürlər. Türk kinosunun sultanı Türkan Şoray Şanlıurfada pərəstişkarları ilə bir araya gəlib. O, uzun müddətdir ziyarət etmək istədiyi şəhərdə olmaqdan məmnunluğunu dilə gətirib. Türkan Şoray Şanlıurfada "tarixin sıfır nöqtəsi" olaraq xarakterizə edilən Göbeklitəpəni də ziyarət edib.

Şanlıurfada Mədəniyyət Yolu Festivalının diqqətçəkən tədbirlərindən biri də "Ləzzət dayanacaqları" məkanlarında bölgəyə xas kababların təcrübəli aşpazlar tərəfindən təqdimatı olub.

Qeyd edək ki, Şanlıurfadan sonra Mədəniyyət Yolu Festivalının ünvanı 1–9 iyunda Bursa, 8-16 iyun tarixlərində Samsun, 22–30 iyunda Trabzon olacaq. Festival noyabr ayınadək ümumilikdə 16 şəhəri əhatə edəcək. Bu müddətdə 600 məkanda 6 minə yaxın tədbir planlaşdırılıb.

2021-ci ildə əsası qoyulan festivalın məramı Türkiyənin şəhərlərinin dünyada tanıdılmasına, eyni zamanda mədəniyyət və incəsənətin inkişafına töhfə verməkdir. Türkiyə Mədəniyyət və Turizm Nazirliyi builki festivala ölkə daxilindən və xaricdən 40 min sənətçini cəlb etməyi hədəfləyib. 2023-cü ildə festivala 34 min sənətçi qatılmış, toplam 5 min tədbir gerçəkləşmişdi.

**V.Kamal**

## Xronoqraf

**1 iyun** Beynəlxalq Uşaqları Müdafiə Günüdür. 1949-cu ildə Beynəlxalq Demokratik Qadınlar Federasiyasının Parisdə keçirilən konqresində təsis olunub. 1956-cı ildən uşaqlarla bağlı daha bir gün, BMT tərəfindən təsis olunan 20 noyabr – Dünya Uşaq Günü də qeyd olunur.

# Tarixdə bu gün



Olaylar, faktlar (28 may – 3 iyun)

### 571 il əvvəl...



**29 may 1453-cü ildə** Sultan Mehmetin (Fateh) başçılıq etdiyi Osmanlı ordusu Bizans (Şərqi Roma) imperiyasının paytaxtı Konstantinopolu fəth edib. 330-cu ildə Bizans imperatoru Konstantin tərəfindən əsası qoyulan şəhər strateji əhəmiyyətinə görə daima böyük dövlətlərin mübarizə obyekti olmuşdu. Şəhərin türklər tərəfindən fəthi onun əldən-ələ keçməsinə son qoydu. İstanbul adlandırılan şəhər Osmanlı dövlətinin paytaxtı elan edildi.

### 469 il əvvəl...

**29 may 1555-ci ildə** Səfəvi dövləti ilə Osmanlı imperatorluğu arasında Amasya sülh müqaviləsi imzalanıb. Səfəvi-Osmanlı müharibəsinin (1514–1555) birinci mərhələsi başa çatıb. Qərbi Gürcüstan (İmeretiya, Meqreliya, Quriya) Osmanlının, Gürcüstanın şərq vilayətləri və Qərbi Azərbaycan (indiki Ermənistan), eləcə də şimallı-cənublu bütün Azərbaycan torpaqları Səfəvi dövlətinin tərkibinə keçib.

### 111 il əvvəl...

**30 may 1913-cü ildə** Balkan müharibəsinin (1912–1913) yekunları ilə bağlı London müqaviləsi bağlanıb. Osmanlı imperiyası Krit adası istisna olmaqla, Balkanlardakı bütün ərazilərindən əl çəkib.

### 106 il əvvəl...

**28 may 1918-ci ildə** Tiflisdə Azərbaycan Milli Şurasının iclasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan olunub. İclasda "İstiqlal Bəyannaməsi" qəbul edilib. Fətəli xan Xoyskinin başçılığı ilə ilk hökumət təsdiqlənib. Milli hökumət iyunun 16-dək Tiflisdə fəaliyyət göstərdi, sonra Gəncəyə köçdü.

### 104 il əvvəl...

**3 iyun 1920-ci ildə** bolşevik işğalına müqavimət göstərən Nuru paşanın başçılığı altında Xalq Cümhuriyyətinin ordu hissələri Şuşa şəhərinə daxil olublar. Onların üzərinə XI rus ordusunun əlavə birləşmələri göndərilib. Sayca qat-qat çox olan rus qoşunları Levandovskinin komandanlığı altında iyunun 15-də Şuşanı yenidən işğal edib.

### 86 il əvvəl...



**2 iyun 1938-ci ildə** Azərbaycanda ilk mülki aviasiya dəstəsi təşkil olunub. Bakıda ilk aviasiya məktəbi 1915-ci ildə yaradılmış, 1923-cü ildə Bakı-Tbilisi marşrutu ilə ilk mülki aviasiya xətti açılmış, 1933-cü ildə Binədə ilk hava limanı istifadəyə verilmişdi. 1938-ci ildə ilk mülki aviasiya dəstəsi uçuşlara başladı. Prezident İlham Əliyevin 2006-cı il 18 may tarixli sərəncamı ilə 2 iyun Azərbaycanda mülki aviasiya işçilərinin peşə bayramı günü elan olunub.

### 32 il əvvəl...

**3 iyun 1992-ci ildə** Azərbaycan Respublikası BMT-nin təhsil, elm, mədəniyyət təşkilatı olan UNESCO-ya üzv qəbul edilib. 1996-cı ildə UNESCO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5086. **Sifariş:** 1218

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641